KHAZAR-REVIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 338 MART 2015




khazar-review.khazar.org
AYLIQ DƏRGİ
ISSN 2218 - 2772







## "XƏZƏR"DƏ NOVRUZ ŞƏNLİYİ

Martın 19-da Xəzər Universitetinin Neftçilər kampusunda universitetin Tələbə Məclisinin təşkilatçılığı və tələbələrin fəal iştirakı ilə Novruz şənliyi keçirildi. Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, dekanlar və departament müdirləri, əməkdaşlar iştirak edirdilər.

Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədov iştirakçıları Novruz münasibətilə təbrik etdi.

Bayram tonqalı yandırıldıqdan sonra tələbə və əməkdaşlar rəqs edib əyləndilər. Bayram şənliyi xoş əhval-ruhiyyə ilə başa çatdı.

# İÇİNDƏKİLƏR

**Beynəlxalq seminar: "Təbii resurslarla zəngin ölkələrdə davamlı inkişafa nail olma yolları"** . . . . 4
**Beynəlxalq simpozium: "İslam mədəniyyətində elm və texnalogiya"** . . . . 6
**"Xəzər Xəbər" jurnalının 20 illiyi** . . . . *12*
**Müəllimimiz Fidan Hacıyevaya Xalq artisti fəxri adı verilmişdir** . . . . 17
**Xəzər Universitetinin nümayəndələri Tehran Universitetlərində** . . . . 18
**"Elmlər doktoru və fəlsəfə doktoru kimi biabırçı adları yığışdırmaq lazımdır"** *(Şaymən Aşırlı)* . . . . 22
*Əlövsət Əmirbəyli.* **Xəzər Universiteti nümayəndə heyətinin Türkiyəyə səfəri** . . 24
**Çin yaz bayramı** . . . . 36
**"Хазар"овцы за рубежом: Облачные Дали** . . . . 38
**Mehriban Sultan. Turizmin inkişafı ilə bağlı beynəlxalq layihə** . . . . 40
**"Marketinq və universitetlərin ömürboyu təhsilində regional əməkdaşlıq "** . . . . 42
**Qraz Universitetində ESFIDIP Tempus layihəsi çərçivəsində görüş.** . . . . 43
*Konul Khalilova.* **How Muslim Azerbaijan Had Satire Years Before Charlie Hebdo** . . 50
**ESFIDIP Tempus layihəsi: Lodz Universitetində tədbir** . . . . 59
*Elmira Memmedova.* **Nizami Gencevi ve ahilik** . . . . 60
**Poeziya** . . . . 74
**İdman** . . . . 76

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

**Redaksiya heyəti:**
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Knyaz Aslan

**Rəssam:**
Mir Rafiq Əbdülrəhimov

**Kompüter tərtibatçısı:**
Nigar Aydəmirova

**Foto:**
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

**It has been published since January 1995**

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isaxanli

**Associate editors:**
Alirza Balayev

**Editorial member:**
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Knyaz Aslan

**Design by:**
Mir Rafig Abdulrahimov

**Computer graphics:**
Nigar Aydemirova

**Photo:**
Multimedia Centre



## BEYNƏLXALQ SEMİNAR: “TƏBİİ RESURSLARLA ZƏNGİN ÖLKƏLƏRDƏ DAVAMLI İNKİŞAFA NAİL OLMA YOLLARI”

Fevralın 16-20-də Xəzər Universitetində British Council-un Tədqiqatçı Əlaqələri layihəsi çərçivəsində "Təbii resurslarla zəngin ölkələrdə davamlı inkişafa nailolma yolları" mövzusunda beynəlxalq seminar keçirildi.

Seminarda Xəzər Universitetinin Böyük Britaniya tərəfdaşı Reading Universitetinin, Oxford və digər universitetlərin tanınmış tədqiqatçıları birgə müzakirələr aparıb, müvafiq şəbəkənin yaradılması və bu imkandan yararlanaraq, Azərbaycanın gənc tədqiqatçılarının bilik və səriştələrinin artırılması istiqamətində maraqlı diskussiyalar təşkil edilib.

## INTERNATIONAL WORKSHOP ON “DELIVERING SUSTAINABLE DEVELOPMENT IN RESOURCE-RICH COUNTRIES”

On February 16-20, British Council's International Researcher Links workshop was held at Khazar University.

Experts and researchers from Khazar's partner universities Reading, Oxford and other universities in the UK held discussions at the seminar, which created opportunities for researchers to network with peers and for young Azerbaijani researchers to develop their knowledge and skills.








Seminarı giriş nitqi ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açdı. Seminarda Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin dekanı professor İnqilab Əhmədov, Böyük Britaniyanın Bakıdakı səfirliyinin müvəqqəti işlər üzrə vəkili Adrian Lee, British Council-un Azərbaycanda ölkə üzrə direktoru Elizabet Vayt və Avro-Asiya Araşdırmalar Mərkəzinin direktoru və Birləşmiş Krallıq Reading Universitetinin Henley Business fakültəsinin dekan müavini professor Yelena Kalyuzhnova və digərləri çıxış etdilər.Seminarda ARDNŞ və Azərbaycan Dövlət Neft Fondunun təqdimatları dinlənilib, ölkədə fəaliyyət göstərən müvafiq nazirliklər, yerli və xarici təşkilatların, tanınmış universitetlərin nümayəndələri çıxış edib, mövzu ilə bağlı fikir mübadiləsi aparılıb.

Seminar günlərində Böyük Britaniyadan gəlmiş qonaqlar üçün maraqlı mədəni proqram da təşkil edilmişdir.

The workshop was opened by Prof. Hamlet Isaxanli, Founder and Chairman of the Board of Directors and Trustees of Khazar University. Speeches and presentations were made by Prof. Ingilab Ahmadov, Dean of School of Economics and Management; Mr. Adrian Lee, Charge d'Affairs of the British Embassy to Baku; Ms. Elizabeth White, Country Director of British Council in Azerbaijan; Prof. Yelena Kalyuzhnova, Director of the Centre for Euro-Asian Studies and Vice-Dean of Henley Business School at the University of Reading, UK, and others. The workshop also included presentations by representatives from local and international companies, SOCAR and the Azerbaijan State Oil Fund, ministers, and well-known universities.

The event also included an interesting cultural program for the British guests.





# Science and Technology in Islamic Civilisation International Symposium



### BEYNƏLXALQ SİMPOZİUM: "İSLAM MƏDƏNİYYƏTİNDƏ ELM VƏ TEXNOLOGİYA"

Fevralın 20-21-də Xəzər Universitetinin Mərmər salonunda universitetin və Türkiyənin IRCICA (Research Center for Islamic Art, Science and History) qurumunun birgə təşkilatçılığı ilə "İslam mədəniyyətində elm və texnologiya" adlı beynəlxalq simpozium keçirildi.

Simpoziumun açılış proqramında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirakçıları salamladıqdan sonra elm tarixinin əhəmiyyəti və İslam mədəniyyətinin elm tarixindəki rolunun əhəmiyyəti haqqında danışdı. Sonra IRCICA-nın direktoru, fəlsəfə doktoru Halit Eren qurumun İslam mədəniyyətinin müxtəlif aspektlərinin tədqiqinə həsr olunmuş rolu haqqında danışaraq, simpoziumun bu fəaliyyətlərə öz töhfəsini verəcəyini bildirdi.

Türkiyə Respublikasının Azərbaycandakı səfiri İsmail Alper Coşkun Xəzər Universitetinin elmin inkişafına dəstəklə əlaqəli təşkil etdiyi müxtəlif maraqlı tədbirlər arasında İslam mədəniyyətində elm mövzusuna həsr olunmuş bu simpoziumun böyük əhəmiyyət daşıdığını qeyd etdi. Akademik Vasim Məmmədəliyev İslam mədəniyyətinin dünya mədəniyyəti tarixinə töhfələri haqqında danışaraq, ölkəmizdə daha az bilinən bu sahənin aydınlanmasına həsr olunmuş simpoziumun işinə uğurlar arzuladı.

### INTERNATIONAL SYMPOSIUM ON "SCIENCE AND TECHNOLOGY IN ISLAMIC CIVILIZATION"

On February 20-21, an international symposium entitled "Science and Technology in Islamic Civilization" was held in the Khazar University Marble Hall. It was jointly coordinated by Khazar University and Research Center for Islamic Art, Science and History (IRCICA) of Turkey.

During the opening ceremony of the symposium, Prof. Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, gave a speech to welcome all the participants and share brief information about the significance of the history of science and its role in Islamic civilization. Then Prof. Halit Eren, Director of IRCICA, spoke about the role of the institution, which is dedicated to researching various aspects of Islamic culture. He stated that the symposium would also make its own contribution to these activities.

His Excellency Ismail Alper Coskun, Ambassador of the Republic of Turkey to Azerbaijan, noted that among all the interesting events organized in support of the development of scholarship in Khazar University, this symposium devoted to science in the Islamic world was particularly significant. Academic Vasim Mamadaliyev also spoke about Islam's contributions to the world cultural history and wished success to this conference, which aimed to bring clarity to this relatively understudied field in Azerbaijan.

Xəzər Universiteti İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva Xəzər Universiteti haqqında təqdimatla çıxış etdi. H. Eren H. İsaxanlıya IRCICA qurumu adından hədiyyə təqdim etdikdən sonra universitetin İncəsənət departmentinin müdiri Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin tələbə və əməkdaşlarının hazırladığı konsert proqramı təqdim olundu.

Simpozimun açılış hissəsindən sonra Xəzər Universitetinin prorektoru, fəlsəfə doktoru Fərda Əsədovun moderatorluğunda simpoziumun birinci plenar iclası başladı. İclasda H. İsaxanlı "İslam dövrü əlkimyası Misir-Yunan-Roma-Çin əlkimyası ilə Avropa kimyası arasında", professor Fərid Ələkbərli "Vatikan Apostol Kitabxanasında orta əsr Azərbaycan müəlliflərinin elmi əsərləri", professor Mustafa Demirci (Türkiyə) "İslâm dünyasında zehniyyət ve elmi inqilabın inkişaf mərhələləri" və professor Mustafa Sabri Küçükaşçı (Türkiyə) "Məhəmməd bin Əhməd əl-Xarəzmi ve Mefâtîhu'l-Ulûmadlı əsəri" mövzusunda məruzə etdilər.

Nahar fasiləsindən sonra professor Qadir Khurramın (Pakistan) moderatorluğunda professor Cevher Şululun "İslam elmləri və Qərbə təsirləri" (Türkiyə), Arshad İslamın (Malayziya) "Son dövr Abbasilərdə İslam elmləri (945-1258)", Xəzər universitetinin müəllimi, fəlsəfə doktoru Zivər Hüseynlinin "Səfəvilər dövründə münəccimlik və münəccimlər", fəlsəfə doktoru Ahmed Abdullahın (Misir) "Misir milli kitab-

Raziya Isayeva, Khazar University's Development Director, made a presentation about Khazar University. H. Eren presented a gift to H.Isaxanli from IRCICA. Then Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts, led a concert program including performances by university students and staff.

After the opening ceremony, Dr. Farda Asadov, Vice President of Khazar University, moderated the first plenary session of the symposium. Presentations were made by H.Isaxanli (Alchemy of the Muslim Period between Egyptian-Greek-Roman-Chinese Alchemy and European Chemistry), Professor Farid Alakbarli (Scientific Manuscripts of Azeri Writers in the Middle Ages at Apostolic Library of Vatican), Prof. Mustafa Demirci from Turkey (Mentality and the Dynamics of the Scientific Revolution in the Islamic World) and Prof. Mustafa Sabri Kucukasci of Turkey (Muhammad ibn Ahmad al-Khwarizmi and his Work Entitled Mafatih al-Ulum).

After a lunch break, the second plenary session was moderated by Prof. Qadir Khurramin of Pakistan. Presentations were made by Prof. Cevher Sulul of Turkey (Islamic Sciences and their Effects on the West), Arshad Islam of Malaysia (Islamic Science in the Late Abbasid Period (945-1258), Dr. Zivar Huseynli of Khazar University (Astrology and astrologists during Safavid Period), and Dr. Ahmed Abdullah of Egypt (Turkish Manuscripts on Natural Sciences in the Egyptian National Library).





xanasında təbiət elmlərinə dair türkcə əlyazmalar" mövzusunda məruzələri təqdim olundu.

Simpoziumun birinci gününün sonuncu iclasında isə Xəzər Universitetinin departament müdiri, professor Hassan Niknafsın moderatorluğunda fəlsəfə doktoru Nusratolla Zakirovun (Tacikistan) "Orta əsrlər müsəlman elm adamlarının dünya mədəniyyətinin inkişafına töhfələri", fəlsəfə doktorları Bilal Dədəyev Süleyman Sarıbaşın (Türkiyə) "Marağa rəsədxanasında təhsil və elm", professor Mehmet Rıhtım və fəlsəfə doktoru Yaqub Əliyevin "Nəsirəddin Tusinin həndəsəyə dair iki əsəri və bunların Fateh Sultan Mehmedin kolleksiyasinda saxlanilan əlyazmaları" mövzusunda məruzələri dinlənildi.

Azərbaycanın müxtəlif ali təhsil qurumlarından çoxlu elm adamının və tələbələrin də iştirakı ilə hər plenar iclasın sonunda məruzələrlə əlaqəli sual-cavab və fikir mübadiləsi aparıldı. Maraqlı müzakirələr simpoziumun birinci gününün sonunda qonaqların dəvət olunduğu şam yeməyi ətrafında davam etdi.

İkinci gününün ilk iclasında Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin müəllimi, fəlsəfə doktoru Javad Mehrinin moderatorluğunda fəlsəfə doktoru Aqil Şirinov "Nəsirəddin Tusinin dəqiq elmlər tarixindəki yeri", professor Feridun Emecen (Türkiyə) "Osmanlı hərbi texnologiyasının inkişafına bir nümunə: yüngül odlu silahlar", Xəzər Universitetinin müəllimi, fəlsəfə doktoru Dilavər Əzmli "Rəbi-Rəşidi elm mərkəzinin İslam dünyasinda roluna dair"

Prof. Hasan Niknafs, Dean of the School of Engineering and Applied Science, moderated the final plenary session, in which presentations were made by Nusratolla Zakirov of Tajikistan (The Contri-bution of Muslim Scholars of the Middle Ages to the Development of World Civilization), Drs. Bilal Dadayev Suleyman Saribashin of Turkey (Education and Science in the Maraga Observatory), and Prof. Mehmet Rihtim and Dr. Yagub Aliyev (Nasir al-Din al-Tusi's Two Works Related to Geometry and their Manuscripts in the Collections of Sultan Mehmed II).

At the end of each plenary session, a question-and-answer session was held. Many scholars and students from various higher education institutions of Azerbaijan participated in the symposium. At the end of the first day of the symposium, the guests were invited to dinner to continue their discussions.

On the second day of the International Symposium, the first plenary session was moderated by Dr. Javad Mehri, instructor of the Khazar University School of Engineering. Presentations were made by Dr. Agil Shirinov (Nasir al-Din al-Tusi and His Place in the History of Exact Sciences), Prof. Feridun Emecen of Turkey (A Sample on the Ottoman Military Technology Development: Light Firearms), and Dr. Dilavar Azmli of Khazar University (About the Role of the Scientific Center entitled "Rabi-Rashidi" in Islamic World).

mövzuda məruzələrlə çıxış etdilər.

Feridun Emecenin moderatorluğundakı ikinci iclasda fəlsəfə doktoru Elvüsal Məmmədov "İbn Heysəm optika problemlərinin müsəlman tədqiqatçısı kimi", professor Erdoğan Baş (Türkiyə) "Qur'an və texnologiya münasibəti: yanaşmalar, istiqamətləndirmələr və kəşflər" və fəlsəfə doktoru Elnur Nəsirov "Osmanli elminə töhfə vermiş bəzi azərbaycanli alimlər" mövzusunda məruzələrini təqdim etdilər.

Nahar fasiləsindən sonra professor Tayyar Altıkulaçın (Türkiyə) moderatorluğu ilə davam edən iclasda fəlsəfə doktoru Qoşqar Səlimlinin "İslam alimlərinin dəqiq elmlər sahəsindəki nailiyyətləri", fəlsəfə doktoru İbrahim Bazın (Türkiyə) "İslam elm tarixində Cizrə və cizrəli alim Əbül-iz İsmail əl-Cəzəri" və professor Möhsün Nağısoylunun "XII əsrin ensiklopedik alimi Hübeyş Tiflisi" mövzusunda məruzələri dinlənildi.

Xəzər Universiteti Biologiya departmentinin müdiri fəlsəfə doktoru İradə Xəlilovanın moderatorluğunda aparılan sonuncu iclasda Xəzər Universitetinin Şərq dilləri departamentinin müdiri fəlsəfə doktoru Elnurə Əzizovanın "Peyğəmbər dövrü müalicə ənənəsi və İslam tibbindəki izləri", Xəzər Universitetinin müəllmii Günay Əkbərovanın "Tibbi genetikada yeni bir müalicə üsulu olaraq kök hücrə tədqiqatları: İslami cəhətdən bir baxış", professor Qadir Khurram (Pakistan) "Elmi tədqiqatların təbiəti" və professor Syed Minhaj ul Hassan (Hongkong) "Əbül-Qasım əl-Zəhravi: ilk böyük müsəlman cərrah və icad etdiyi tibb alətləri" adlı mövzuları təqdim olundu.

Hər bir iclasın sonunda məruzəçilərin və dinləyicilərin mövzu ilə əlaqəli sualları cavablandırıldı və mövzulara fərqli baxış və yanaşmalar bildirildi.

Simpoziumun sonunda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı IRCICA-nın direktoru professor Halit Erenə Xəzər Universiteti adından xatirə hədiyyəsi təqdim etdi. Sonra hər iki qurumun rəhbəri simpozium haqqında yekun fikirlərini bildirdilər və uğurla nəticələnən simpoziumun bu sahədəki əməkdaşlığın başlanğıcı olduğunu qeyd etdilər.

Xatirə fotosunun çəkilişindən sonra qonaqlar şam yeməyinə dəvət olundu.

Simpoziumun mədəni proqrama həsr olunmuş son günü (22 fevral) qonaqlar şəhərimizlə daha yaxından tanış oldular. Qədim və yeni Bakı olmaqla iki hissədə təşkil olunmuş şəhər gəzintisində qonaqlar İçəri Şəhərdə Şirvanşahlar sarayı, Qız qalası və digər tarixi memarlıq nümunələrini gəzdilər, həmçinin müasir Bakının yeni arxitektura komplekslərində oldular.

In the second session, moderated by Prof. Feridun Emece, presentations were made by Dr. Elvusal Məmmadov (Ibn al-Haytham as a Muslim Researcher of Optical Problems), Prof. Erdogan Bas of Turkey (Al-Qur'an and Technology: From the Perspective of Approaches, Directions and Discoveries) and Dr. Elnur Nasirov (Azerbaijani Scholars Contributing to Ottoman Science).

After a lunch break, the third session was moderated by Prof. Tayyar Altikulac of Turkey. Presentations were made by Dr. Goshgar Salimli (Muslim Scholars' Contributions to the Exact Sciences), Dr. Ibrahim Baz of Turkey (The Place of al-Jizra and a Scholar from al-Jizra Abu al-Iz Ismail al-Jazari in the History of Islamic Science), and Prof. Mohswn Naghisoylu (Hubaysh al-Tiflisi as an Encyclopedic Scholar of the 12th Century).

The fourth session was moderated by Dr. Irada Khalilova, Head of the Khazar University Department of Biology. Presentations were made by the Head of the Department of Eastern Languages, Dr. Elnura Azizova (The Tradition of Treatment during Prophet's Period and its Traces in Islamic Medicine), Gunay Akbarova, instructor of Khazar (Stem Cells Researches as a New Treatment Options in Medical Genetics: An Islamic Perspective), Prof. Gadir Khurram of Pakistan (The Nature of Muslim Scientific Enquiry), and Prof. Syed Minhaj ul Hassan of Hong Kong (Abul-Qasim al-Zahraəi: The Great and Pioneer Muslim Surgeon and Inventor of Many Surgical Instruments). Question-and-answer sessions were held at the end of each plenary session, in which participants shared their views and discussed the lectures.

At the end of the symposium, Prof. Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, gave a gift to Prof. Halit Eren, Director of IRCICA. Then each of the two administrators made a closing speech to summarize the symposium. They noted that this symposium had been the beginning of the two institutions' partnership in this field.

Group photographs were taken. Then dinner was served for the guests.

The final day of the symposium (February 22) was dedicated to cultural excursions. The guests toured historical and modern parts of Baku in a two-part excursion including the Shirvanshahlar Palace in the Old City, Maiden's Tower, and other historical architectural sites. They also viewed modern architectural complexes in Baku.


Prof. ERDOĞAN BAŞ
Turkey









## RESEARCH CENTRE FOR ISLAMIC HISFORY, ART AND CULTURE

## CENTRE DE RECHERCHES SUR L'HISTOIRE, L'ART ET LA CULTURE ISLAMIQUES

***24 Şubat 2015***

*Prof. Dr. Hamlet İsahanlı Hazar Üniversitesi Direktörler ve Mütevelli Heyeti Kurucusu ve Başkanı*

*Bakü Azerbaycan Cumhuriyeti*

**Sayın Prof.Dr. Hamlet İsahanlı Beyefendi!**

20-22 Şubat 2015 tarihlerinde Bakü'de Merkezimiz ile Hazar Üniversitesinin beraber düzenlediği «İslam Medeniyetinde Bilim ve Teknoloji» konulu uluslararası sempozyuma münasebetiyle sizinle ve arkadaşlarınızla Bakü'de görüşmekten dolayı çok memnun oldum. Bakü'de kaldığım süre içinde bana ve beraberimdeki arkadaşlara göstermiş olduğunuz ilgi ve misafirperverlikten dolayı sizlere çok teşekkür ederim.

Şüphesiz ki sizin yakın ilgi ve desteğinizin bu akademik toplantının başarılı geçmesinde büyük rolü mevcuttur. Merkezimiz ile Üniversiteniz arasında tesis ettiğimiz bu ikili işbirliğin giderek daha da güçlenmesini ve sağlamlaşmasını temenni ediyorum.

Bu vesile ile en iyi dileklerimi sunar, selam ve saygılarımı iletirim.

*Doç.Dr. Halit Eren*
*Genel Direktör*

***24 February 2015***

*Prof. Dr. Hamlet Isaxanli Founder and Chairman of Board of Directors and Trustees, Khazar University*

*Baku, Azerbaijan*

**Dear Prof. Dr. Hamlet Isaxanli,**

It was my great pleasure to meet with you and your colleagues in Baku for the "Science and Technology in Islamic Civilization" International Symposium jointly organized by our Center and Khazar University on 20-22 February 2015. Thank you very much for the hospitality and care that you showed to me and to my colleagues during the time we were in Baku.

Of course, your care and attention played a large role in the success of this academic gathering. I am hopeful that we will further develop the bilateral cooperation that has been established between our Center and the University.

I send you my greetings, respect and best wishes.

*Assoc. Prof. Dr. Halit Eren*
*Executive Director*



# “XƏZƏR XƏBƏR”

## JURNALININ 20 İLLİYİ





Fevralın 27-də Xəzər Universitetinin Mərmər salonunda "Xəzər Xəbər" jurnalının 20 illiyi münasibətilə mərasim keçirildi. Mərasim "Xəzər Xəbər" jurnalının 300-cü nömrəsinin çapdan çıxması münasibətilə universitetin Multimedia mərkəzinin hazırladığı filmin nümayişi ilə başlandı. Sonra "Xəzər Xəbər" jurnalının baş redaktoru, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, jurnalın yaranması, keçdiyi inkişaf mərhələləri haqqında geniş məlumat verdi, jurnalın kollektivini, müəllif və oxucularını yubiley münasibətilə təbrik etdi, onlara uğurlar arzuladı.

BDU-nun dosenti, tanınmış şair, publisist Knyaz Aslan, Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri Vurğun Əyyub, İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Firəngiz Nəsirova jurnalın müxtəlif fəaliyyət istiqamətlərindən danışdılar.

"Dünya" məktəbinin təsisçisi, "Dünya" jurnalının baş redaktoru, Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurası sədrinin müşaviri Nailəxanım İsayeva "Xəzər Xəbər" jurnalının kollektivini "Dünya" məktəbi və "Dünya" jurnalı adından təbrik etdi. Jurnalın baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayevə gül dəstəsi təqdim etdi.

Yığıncaqda "Xəzər Xəbər" jurnalının əməkdaşlarına və müəlliflərinə təşəkkürnamələr təqdim olundu. Təşəkkürnamələri H. İsaxanlı, prorektorlar Məhəmməd Nuriyev və İsaxan İsaxanlı, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov təqdim etdilər.

Mərasimin rəsmi hissəsindən sonra iştirakçılara universitetin Musiqi və incəsənət departamentinin hazırladığı konsert proqramı təqdim olundu. Konsertdə departamentin müdiri, pianoçu Zülfiyyə Sadıqova, müğənnilər – əməkdar artist Ruhəngiz Musəvi və universitetin müəllimi Məhsəti Cabbarova, Arif Azər Türk (tar) və Elnur Babayev (skripka) iştirak etdilər.





**"Xəzər Xəbər" həyatımızın 20 ilinin güzgüsüdür.**

*Professor Hamlet İsaxanlı*

**"Xəzər Xəbər" dünya təhsili mənzərəsində Xəzər Universitetinin obrazını yarada və təqdim edə bilir.**

*Professor Əjdər Ağayev,*
*Azərbaycan Təhsil Şurasının sədri*

**"Xəzər Xəbər"-in özünü təsdiqinin başlıca meyarlarından biri də jurnalistika məktəbi kimi formalaşmasıdır.**

*Əflatun Amaşov,*
*Azərbaycan Mətbuat Şurasının sədri*










1991
BAKI




1991
BAKI











# MÜƏLLİMİMİZ FİDAN HACIYEVAYA XALQ ARTİSTİ FƏXRİ ADI VERİLMİŞDİR

Azərbaycan Respublikası Prezidentinin 5 mart 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında mədəniyyət, təhsil və səhiyyə sahələrində səmərəli fəaliyyətlərinə görə, 8 mart – Beynəlxalq Qadınlar günü münasibəti ilə Azərbaycan qadınlarının bir qrupuna Azərbaycan Respublikasının fəxri adları verilmişdir. Xəzər Universitetinin vokal müəllimi, əməkdar artist Hacıyeva Naylor Fidan Hacı Ağa qızı da Xalq artisti fəxri adına layiq görülmüşdür.

Müəllimimizi təbrik edir, ona yeni yaradıcılıq uğurları arzulayırıq.



Fidan Hacı Ağa qızı Hacıyeva-Naylor 1976-cı ildə Bakıda anadan olmuşdur.

Bülbül adına Bakı Musiqi məktəbinin fortepiano sinfini və Baki Musiqi Akademiyasının vokal fakültəsini bitirmişdir. Metso-soprano səs tembrinə malikdir. Azərbaycanın əməkdar artisti, professor Hüseyn Əliyevin yetirməsidir. 1996-cı ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistidir.

Milli və klassik opera tamaşalarında aparıcı partiyaları ifa edir: Gülüş -"Sevil" (Fikrət Əmirov,Cəfər Cabbarlı); Asya - "Arşın mal alan" (Üzeyir Hacıbəyov); Karmen - "Karmen" (Corc Bizen); Rozina - "Sevilya bərbəri" (Coakkino Rossi);Amneris "Aida" (Cüzeppe Verdi); Azuçena -"Trubadur"(Cuzeppe Verdi) və s.

Kipr, Türkiyə, Rusiya, Yaponiya və İtaliyada qastrol səfərlərində olmuşdur. 2002-ci ildə İtaliyanın Kidjiana Musiqi Akademiyasında ixtisasartırma kursu keçmiş və Akademiyanın xüsusi diplomuna layiq görülmüşdür.

2006-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 5 mart 2015-ci ildə isə Xalq artisti fəxri adına layiq görülmüşdür.

Fidan Hacıyeva 2003-cü ildə İngiltərə vətəndaşı Filip Neylorla ailə qurub. Onların bu nikahdan 3 övladı var.





## XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ TEHRAN UNİVERSİTETLƏRİNDƏ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı professor Hassan Niknafs martın 1-2 - də Iran İslam Respublikasının Tehran şəhərində işgüzar səfərdə olmuşlar.

Martın 1-də onlar Xacə Nəsirəddin Tusi Texniki Universitetində olub, universitetlər arasında əməkdaşlığa dair protokol imzalanması haqqında danışlqlar aparmışlar. Universitetdə qonaqlar üçün ekskursiya da təşkil edilmişdir. Onlar robotika sahəsinə aid laboratoriyalarla, sinif otaqları ilə tanış olmuş, müəllimlərlə görüşmüşlər. Tələbələr 4 propelli pilotsuz təyyarə modelinin havada idarə olunmasını, stabil uçmasını nümayiş edirmişlər. Sonra kiçik ölçülü (200 mm qalınlıqda, 150 mm hündürlükdə olan) futbolçu robotlardan ibarət “Robocup” oyunu nümayiş olunmuşdur. Robotların 360 dərəcə hərəkət etmək, topa zərbə ilə qol vurmaq qabiliyyəti var. Ekskursiyanı Robotika departamentinin müdiri professor Tağirad təşkil etmişdi.

H.İsaxanı və H.Niknafs Xacə Nəsirəddin Tusi Texniki Universitetinin rektoru professor Sadiğ ilə görüşmüşər. Rektor müəllim mübadiləsini, seminarlar keçirilməsini nəzərdə tutan protokol imzalamağa, Xəzər Universiteti ilə bərabər işləməyə hazır olduğunu söyləmişdir. Görüşdən sonra hazırlanan protokol H.İsaxanlı tərəfindən qəbul olunub imzalanmışdır.

Xəzər Universitetinin nümayəndələri martın 1-də günün ikinci yarısında Amirkabir Universitetində (əvvəl Tehran Politexnik Universiteti kimi tanınırdı) olmuşılar.

Amirkabir Universitetinin nümayəndəsi universitet haqqında qısa məlumat verdikdən sonra H.

## KHAZAR UNIVERSITY ADMINISTRATORS VISIT UNIVERSITIES IN TEHRAN

On March 1-2, Prof. Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Dr. Hassan Niknafs, the Dean of the School of Engineering and Applied Sciences, visited universities in Tehran, Islamic Republic of Iran.

On March 1st, they visited KNT Technical University (Khaje Nasireddin Toosi Technical University) to discuss signing an MOU between the two universities. They also had a chance to visit faculty members and view all the facilities and laboratories related to their activities in the field of Robotics. Students gave a demonstration in the lab of the flight of a 4-propeller drone, showing its control and stability in the air. They also presented Robocup, which consists of some smaller size Robots (200 mm in diameter and 150 mm high) that can play soccer. Robots can move 360 degrees and pass the ball or shoot a goal by kicking the ball. The delegation was accompanied by Dr. Taghirad, the head of the Robotics Department.

H.Isaxanli and H.Niknafs also met Dr. Sadigh, the president of KNT Technical University. Dr. Sadigh was very eager to initiating collaboration with Khazar University based on a signed MoU including setting up workshops and instructor exchanges. The MoU has already been received and signed by Prof. Hamlet Isaxanli.

On the afternoon of March 1st, the delegation visited Amirkabir University (formerly Tehran Polytechnic). After attending a brief presentation about Amirkabir University, Dr. Hassan Niknafs also gave a presentation about Khazar University. At the end of this meeting, an MoU already signed by Dr. Ahmad Motamedia, Chancellor of Amirkabir University,

Niknafs çıxış edərək, görüş iştirakçılarını Xəzər Universiteti haqqında məlumatlandırmışdır. Amirkabir Universitetinin rektoru tərəfindən əvvəlcədən imzalanmış protokolu H.İsaxanlı da imzalamışdır.

Sonda Elektrik mühənsidliyi departamentinin professoru Dr. Mehdi Karrari qonaqları maraqlandıran kompüter elmləri sahəsi üzrə laboratoriyalara ekskursiya təşkil etmiş, qonaqlar departamentin 14 müxtəlif laboratoriyası ilə tanış olmuşlar.

Martın 2-də Xəzər Universitetinin nümayəndələri Tehran Universitetinin 80 illik yubileyi mərasimində iştirak etmək üçün universitetə gəlmişlər. Mərasim ərəfəsində 500-dən çox rəsmi qonaqğın iştirakı ilə keçirilən konsertdə İranın məşhur "Rastak" ansamblının ifasında ökənin müxtəlif bölgələrinə, o cümlədən azərbaycanlılara aid olan xalq musiqisi ifa olunmuşdur. Konsertdə H.İsaxanlı çıxış edərək, dəvət üçün təşəkkürünü bildirmiş, iştirakçılarla yubiley sevincini bölüşmüşdür.

Həmin gün H.İsaxanlı və H.Niknafs Neft fakültəsi və Elektrotexnika - Robotika fakültəsinin nümayəndələri ilə də görüşmüşlər. Görüşdə Tehran Universiteti Neft Mühəndisliyi İnstitutunun direktor müavini professor Mahammad Reza Rasaei tədris, seminar, treninq, laboratoriya təchizatı və digər məsələlərdə Xəzər Universiteti ilə bərabər işləməyə hazır olduqlarını söyləmişdir. Bu səmərəli əməkdaşlığı rəsmiləşdirmək üçün müvafiq protokol hazırda Xəzər Universiteti tərəfindən hazırlanır.

Günün ikinci yarısında H.İsaxanlı və H.Niknafs Tehran Universitetinin 80 illik yubileyi mərasimində iştirak etmişlər.

Mərasimin sonunda H.İsaxanlı Tehran Universitetinin rektoru professor Nili Ahmadabadiyə hədiyyə olaraq, Azərbaycan Milli Atlasını təqdim etmişdir. Sonra qonaqların şərəfinə ziyafət verilmiş, dünyanın ən hündür 5 qülləsindən biri olan Milad qülləsinə ekskursiya təşkil olunmuşdur.

was also signed by Dr. Hamlet Isaxanli.

Since the focus of the visit was Computer Science and Computer Engineering, Dr. Mehdi Karrari, Professor of the Department of Electrical Engineering, provided a tour of 14 different research laboratories in the Computer Engineering Department.

On March 2nd, the delegation attended the 80th anniversary of the official founding of Tehran University. On the eve of the anniversary ceremony, H.Isaxanli and H.Niknafs attended a concert organized by the university. A famous ensemble called "The Rastak Group" played folk music from different regions of Iran, including Azerbaijani music. H.Isaxanli gave a brief speech expressing his joy and gratitude to more than 500 students, dignitaries, and representatives of Tehran University participating in the ceremony.

On the morning of March 2nd, H.Isaxanli and H.Niknafs met with the representatives of the Schools of Petroleum and Electrical Engineering (Robotics). They met with Dr. Mahamad Reza Rasaei, the deputy of administration for the Petroleum Engineering Institute, who expressed his eagerness for collaboration with Khazar University in all aspects of academic courses, workshops, software training, laboratory equipment, field development studies and beyond. A relevant MoU is being prepared by Khazar University and will be sent to Tehran University to make this collaboration official.

On the afternoon of March 2nd, H.Isaxanli and H.Niknafs attended the main ceremony for the 80th anniversary of the establishment of Tehran University. At the end of the ceremony, H.Isaxanli was invited to deliver a gift (the Azerbaijani National Atlas) to Prof. Nili Ahmadabadi, the president of Tehran University. An official dinner and tour of the Milad Tower (the 5th largest tower in the world) followed as the event drew to a close.



## “XƏZƏR-SPARE” ENERJİ AKADEMİYASININ NÖVBƏTİ MƏŞĞƏLƏLƏRİ

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə fevralın 14-də universitetdə “Xəzər-SPARE” Enerji Akademiyasının növbəti məşğələsi keçirilmişdir. Məşğələdə şagirdlər su mənbələrinin qorunmasına dair müxtəlif bilik və bacarıqlar əldə etmişlər.

Akademiyanın fevralın 28-də keçirilmiş məşğələsində isə orta məktəb şagirdləri alternativ enerji mənbələrindən istifadə haqqında təlimat almışlar.

Qeyd edək ki, “Xəzər-SPARE” Akademiyası Xəzər Universitetinin Beynəlxalq SPARE Enerji Akademiyası ilə birgə təşkil etdiyi uşaq akademiyasıdır və əsasən 14-16 yaşlı orta məktəb şagirdlərini özündə birləşdirir.

## KHAZAR - SPARE ENERGY ACADEMY MEETINGS

A meeting of the Khazar-SPARE Energy Academy, coordinated by the Department of Geography and Environment, was held on February 14th. At the meeting, high school students were given knowledge and skills about the preservation of water resources.

Another meeting of the Academy was held on February 28th. This time, students were given knowledge and skills about alternative energy sources.

Khazar-SPARE Energy Academy is an academy for 14 to 16-year-old high school students. It is run in affiliation with the International SPARE Energy Academy.





## "CASPINET" ŞİRKƏTİ İLƏ BİRGƏ SEMİNAR

Fevralın 18-də Xəzər Universiteti Karyera mərkəzi və "CaspiNet" şirkətinin birgə əməkdaşlığı ilə Neftçilər korpusunda “Content Management System", “1C” -Bitrix Korporativ Portal” mövzusunda seminar təşkil edildi. Mühazirəçi layihələr və marketing üzrə menecer Emin Badyagin idi.

Seminarın keçirilməsində əsas məqsəd kompüter elmləri sahəsində təhsil alan tələbələrə yeni proqramları mənimsəməkdə yardımçı olmaqdır.

Şirkət tələbələr üçün 3 aylıq təlimlərdə iştirak etmək şansı yaradır. Təlimləri uğurla başa vuran tələbələrə şirkətdə təcrübə keçmək imkanı da veriləcək.

## SEMINAR WITH CASPINET COMPANY

On February 18th, the Khazar University Career Center and the CaspiNet company teamed up to present a seminar on Content Management System and 1C Bitrix Corporate Portal. The training was led by Emin Badyagin, Marketing and Projects Manager.

The goal of the seminar was to introduce new programs to computer science students and help them to acquire skills and certification for the future. The company has created an opportunity for students to participate in a 3-month training program. Students who successfully complete the training will also have the opportunity to be accepted for internships or part-time jobs.




# ƏN FƏAL OXUCU MÜSABİQƏSİNİN QALİBLƏRİ

Fevralın 12 - də Xəzər Universitetinin Kitabxana - informasiya mərkəzində (KİM) "Kitabla dost ol, ən fəal oxucu ol!" müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirildi. 2014-cü ilin nəticələrinə əsasən müsabiqənin qalibləri kitabxanaçılardan ibarət qrup tərəfindən əməkdaşlar və tələbələr arasından bu meyarlara görə müəyyənləşdirilmişdi: oxunan kitabların sayı; istifadə olunan zalların çoxluğu; KİM-in qaydalarına riayət.

Əməkdaşlardan Maliyyə şöbəsinin müdiri Nağı Bayramlı (I yer), Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan müavini Vəfa Aslanova (II yer), Cəmilə Quliyeva (III yer), tələbələrdən Fəridə Ocaqova (I yer), Cəvahir Hacıyeva (II yer), Hüseyn Hüseynli (III yer) müsabiqənin qalibləri oldular.

Bundan əlavə, həm əməkdaşlara, həm də tələbələrə həvəsləndirici sertifikatlar və hədiyyələr təqdim olundu.

Ən fəal oxucu müsabiqəsinin əsas məqsədi kitabı, kitabxananı və mütaliəni təbliğ etmək və onların hər bir insanın həyatında və təhsilində rolunu yüksəldmək idi. Zənnimcə, bu tədbiri keçirməklə qoyduğumuz məqsədə nail ola bildik. Bu kimi tədbirlər oxuculara, xüsusən də gənclərə kitab oxumağın əhəmiyyətini aşılayaraq, eyni zamanda kitabxanaya diqqəti cəlb edəcək. Axı kitabxana böyük bir xəzinədir və bu xəzinənin sərvətləri hər kəs üçün daim açıqdır.

*Gülşən Mehdiyeva,*
*Xəzər Universiteti KİM direktoru*

## BLAKSMİT İNSTİTUTU EKSPERTİNİN "XƏZƏR"DƏ MÜHAZİRƏSİ

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin dəvəti ilə ABŞ Blaksmit İnstitutunun eksperti Barbara Jones fevralın 13-də Təhsil fakültəsinin tələbələrinə "Toksik maddələrlə çirklənmiş ərazilərin bərpası" (Re-mediation of the areas polluted with toxic pollutants) mövzusunda mühazirə oxumuşdur.

## BLACKSMITH INSTITUTE EXPERT SPEAKS AT KHAZAR

On February 13, Barbara Jones, an expert from the Blacksmith Institute (USA), gave a guest lecture for students of the Khazar University School of Education on "remediation of areas polluted with toxic pollutants." Her visit was coordinated by the Department of Geography and Environment.

## ASSEMBLER PROQRAMLAŞDIRMA DİLİNDƏN MÜHAZİRƏLƏR

Fevralın 14-də "İlk Addımlar" layihəsinin və Xəzər Universitetinin təşkilatçılığı ilə Assembler Proqranlaşdırma dilindən mühazirələrə start verildi.

Təlimçi Əhməd Sadıxov ilk seminarda prosessorun arxitekturası və sadə instruksiyalar, Assembler dilində sadə proqramlar barədə təlim keçdi. Tələbələrə mövzu ilə əlaqədar faydalı vəsaitlər payladı və onları maraqlandıran sualları cavablandırdı.

Növbəti mühazirələr yaddaş, yaddaşın strukturu, assemblerdə cərgələr, debaqqer vasitəsilə yaddaşın təhlili mövzularını əhatə edəcək.

Seminarda Xəzər Universiteti, Qafqaz Universiteti, ATU, ADPU, AzMİU, BDU və digər universitetlərin tələbələri iştirak etdilər.

Mühazirələr 3 seminardan ibarət olacaq və pulsuz keçirilir. Mühazirələri keçirməkdən məqsəd Azərbaycanda Sistem Proqramlaşdırma sahəsində ilkin anlayışları olan gəncləri bir yerə toplamaq və bu sahədəki biliklərini təkmilləşdirməkdir.



# "KİMYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU, FƏLSƏFƏ ÜZRƏ FƏLSƏFƏ DOKTORU KİMİ BİABIRÇI ADLARI YIĞIŞDIRMAQ LAZIMDIR"

*(Hamlet İsaxanlının "Şərq" qəzetinə müsahibəsi)*

**"Xəzər" Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı digər alimlərimizdən fərqli olaraq, "Elm haqqında" qanun layihəsini heç də əhəmiyyətli sənəd kimi görmür:**

- "Elm haqqında" qanunun qəbulundan heç bir gözləntilərim yoxdur. Əslində, bu qanunu ciddi bir sənəd kimi görmürəm də. "Təhsil haqqında" qanunun qəbulu da bu düşüncəmdə haqlı olduğumu göstərir. Qəbul olunan qanun bu günü və ən yaxın gələcəyi nəzərdə tutmalı, həmin sahə ilə bağlı həyata keçiriləcək ciddi islahatların başlanğıcı olmalıdır.

Amma "Təhsil haqqında" qanun qəbulunda biz bunun şahidi olmadıq. "Təhsil haqqında" qanunla il yarım bundan əvvəl Azərbaycanda qəbul olunan "Təhsildə İnkişaf Strategiyası" adlı sənədlə yerlə göy arasında fərq var. Həmin Strategiya qeyri-adi dərəcədə əhəmiyyətli sənəddir. Oradakı qərarlar "Təhsil haqqında" qanunun xeyli maddələrinə də ziddir. Çünki təhsil qanunu mühafizəkarlığımızı, yəni təhsilimizdə olan mövcud məsələlərini özündə ehtiva edir. Təhsil strategiyası isə gələcəyə baxış konsepsiyasıdır. Bu günə qədər təhsil sistemimizdə olmayan məsələlər öz əksini tapıb. Mövcud problemlər göstərilib və onların aradan qaldırılması üçün də atılacaq 5 əsas istiqamət göstərilib. Qanun isə bizə yeni heç nə vermədi, əksinə, köhnəliyi daha da bərkitdi. "Elm haqqında" qanun da eynən "Təhsil haqqında" qanun kimi bizə yeni heç nə vəd etmir. Sözün açığı, Azərbaycanda elm sahəsi bərbad vəziyyətdədir. Təhsildən, iqtisadiyyatdan, siyasətdən, hətta kənd təsərrüfatından belə aşağı səviyyədədir. Bir sözlə, Azərbaycandakı geniş fəaliyyət sahələri içərisində ən acınacaqlı durum elm sahəsindədir.

Məşhur jurnallarda çap olunan elmi məqalələrin sayına görə, Azərbaycan bir sıra Afrika ölkələrindən belə geri qalır. Fikir verin, mən Amerika və ya Avropanın hansısa bir ölkəsi ilə müqayisədə geri qaldığımızı yox, məhz Afrika və ərəb ölkələrindən geri qaldığımızı qeyd edirəm. Bu müqayisənin özü belə Azərbaycan elminin hansı səviyyədə olduğunun təzahürüdür. Bu geriliyi aradan qaldırmaq üçün də qəbulu gözlənilən "Elm haqqında" qanun layihəsi bu sahədə həyata keçiriləcək çox ciddi islahatların başlanğıcı olmalı idi və bu qanunun qəbuluna qədər artıq bu istiqamətdə müəyyən addımlar atılmalı idi. Amma biz indiyə qədər bütün bunların şahidi olmadıq. Necə ki, bir müddət sovet dövründə elmlə məşğul olduq və sonradan xeyli geri düşdük. İndi də elmimiz həmin sistemlə idarə olunur. Bu isə o deməkdir ki, sovet dövrünün son çağlarında bizi irəliyə aparmayan bir sistemdən 21-ci əsrdə effekt gözləməyə dəyməz.

**- Sizcə, qanun layihəsində gənc alimlərin stimullaşdırılması, onların statuslarının və maliyyə məsələlərinin həlli istiqamətində öz əksini tapan müddəalar effekt verəcəkmi?**

- "Elmimiz qocalır, gəncləri elmə cəlb etmək üçün real addımlar atılmalıdır" kimi söyləntilər, sadəcə fikirlərdir. Ortada real addım yoxdur. Müzakirələr zamanı eşidirəm ki, riyaziyyat, fizika, kimya sahələri üzrə elm bizə lazım deyil, tətbiqlər lazımdır. Bu nə yanaşmadır? Bu cür gülünc təkliflərin səslənməsi... acınacaqlı vəziyyətdən xəbər verir. Təbii ki, elmdə tətbiq mühümdür, amma fundamental elmsiz elm yoxdur. Riyaziyyat elmi inkişaf etməsə, riyaziyyatın tətbiqindən danışmaq mümkündürmü? Hesab edirəm ki, qeyri-peşəkar, səthi fikirlər səsləndirməklə elmi daha da uçuruma yuvarlamaq olmaz.

"Elm haqqında" qanun layihəsini tamamlamazdan əvvəl aidiyyəti komissiya bir-bir elm müəssisələrinə, universitetlərə baş çəkib müzakirələr keçirməli, peşəkar elm adamlarının fikirlərini, təkliflərini öyrənməli idi. Yazılı şəkildə təkliflərin komissiyaya göndərilməsinin effekti azdır. Layihəni dəyərləndirən alimlər belə öz təkliflərini yazmağı lazım bilmirlər. Çünki sonda heç bir işə yaramayacağına əmindirlər.

Elmimiz qocalıb deyə həyəcan siqnalı çalırlar. Amma elmin inkişafı üçün zəruri olan addımları atmırlar. İndiki dərəcə sistemləri fonunda elmdə gəncləşmə siyasətini necə həyata keçirəcəklər, bilmirəm. Dünyanın heç bir ölkəsində alimə elmi dərəcə vermək üçün bizdəki kimi iki dəfə yorucu, bürokratik, uzun qaydalar tətbiq olunmur. Kimya üzrə fəlsəfə doktoru, fəlsəfə üzrə fəlsəfə doktoru kimi biabırçı adları yığışdırmaq lazımdır. Azərbaycandan başqa heç bir ölkədə kimya üzrə fəlsəfə doktoru kimi ifadədən istifadə etmirlər. Bu artıq elmdə geriliyin, əyalətçi düşüncənin əlamətidir. Əgər iki pilləli elmi dərəcə sistemini istəyiriksə, birincini “elmlər doktoru” (kimya elmlər doktotu), ikincinin, məsələn, “yüksək elmlər doktoru” adlandırmaq olardı (kimya üzrə yüksək doktor). Ola bilsin ki, bu qanunun qəbulu cəmiyyətdə cüzi bir dəyişikliklərlə nəticələnsin. Amma bu, inkişaf demək deyil. Azərbaycan elmi faktiki olaraq "ölü" vəziyyətdədir. Onu diriltmək üçün də kompleks addımlar həyata keçirilməlidir.

**- Deməli, Azərbaycan elmindəki mövcud problemləri aradan qaldırmaq üçün alimlərin statusunu və maaşını artırmaq kifayət deyil?**

- "Elm haqqında" qanun layihəsinin gətirdiyi əsas yeniliklərdən biri gənclərin fasiləsiz olaraq magistratura və doktorantura səviyyəsində təhsillərini davam etdirmələri üçün hərbi xidmətdən möhlət hüququnun verilməsi məsələsi ola bilər ki, bu da elmin gəncləşməsinə töhfə verməyəcək.

Düzdür, bu qərarla elm arxasınca gələn gənclərin sayında bir az artım müşahidə oluna bilər. Amma onların da məqsədi sırf elmlə məşğul olmaq olmayacaq. Gənclər əsgərliyə getməmək üçün magistratura və doktoranturada oxumağa üstünlük verəcəklər.

***Şəymən Aşırlı,***
*“Şərq” qəzeti*
*26.02.2015*




# XƏZƏR UNİVERSİTETİ NÜMAYƏNDƏ HEYƏTİNİN TÜRKİYƏYƏ SƏFƏRİ

2015-ci il martın 11-də Xəzər Universitetinin nümayəndə heyəti Türkiyənin Sütçü İmam Universitetinin dəvəti ilə Bakıdan Ankaraya, oradan isə Kahramanmaraş şəhərinə doqquz saatlıq səfərə start verdi. Nümayəndə heyətinə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı başçılıq edirdi. Tərkibinə İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqova - Yakarişık, Xalq artisti, M. F Axundov adına Opera və Balet Teatrının solisti Samir Cəfərov, Xəzər Universiteti Kamera orkestrinin konsertmeysteri Şahin Həsənov, Xəzər Universitetinin müəllimləri – Opera və Balet Teatrının solisti Məhsəti Cabbarova, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti Telman Əliyev, Səbinə İsmayılova, universitetin Kamera orkestri, qızlardan və oğlanlardan ibarət rəqs qrupları daxil idi.

Axşam saat 21 radələrində nümayəndə heyəti Kahramanmaraş şəhərinə yetişdi. Nümayəndə heyətini Sütçü İmam Universitetinin rəsmi nümayəndələri – Baş Katibin müavini Mithat Karaaslan, Təhlükəsizlik xidmətinin rəhbəri Nedim Duman, müavini Bekir Yılmaz, universitetin Mətbuat xidmətinin rəhbəri Süleyman Top, Xarici Əlaqələr Departamentinin nümayəndəsi Aylin Tülay, Sütçü İmam Universitetinin Azərbaycandan olan tələbəsi Hemran Əmirli və Xəzər Universitetinin yaxın dostu, Kahramanmaraş İl Jandarma Komandanı, general Coşkun Doğan, xanımı Özlem Doğan və digərləri qarşıladılar. İlk axşam "Karvan" restoranında birlikdə yemək yeyildi. Yorğun olmalarına baxmayaraq, Xəzər Universitetinin tələbəsi Musa Abdullayev bir neçə mahnı səsləndirdi. Sonda Ə. Əmirbəyli Sütçü İmam Universitetinin rəhbərliyinə və digər dostlara dərin təşəkkürünü bildirdi.

Martın 12-də Xəzər Universitetinin musiqi kollektivi Sütçü İmam Universitetinin Cahit Zerifoğlu konsert salonunda planlaşdırılmış ilk rəsmi konsert hazırlığına başladı.

Universitetin rektoru, professor Durmuş Deveci Xəzər Universitetinin nümayəndə heyətini, salona toplaşan bütün qonaqları salamlayaraq, "Dostluq Konserti: Azərbaycan-Türkiyə. İki Canda Bir Ürək" adlı proqramı açıq elan etdi. Sütçü İmam Universitetindən proqramı təqdim edən Mehmet Yaşar xalq şairi Bəxtiyar Vahabzadənin Türkiyə-Azərbaycan qardaşlığına həsr olunmuş şeirini oxudu və qonaqları salondakılara təqdim etdi. Türkiyənin İstiqlal Marşı və Azərbaycan Respublikasının Dövlət Himni Xəzər Universitetinin müəllim və tələbələri tərəfindən canlı ifa olundu. Salondakılar onların ifasını ayaq üstə alqışladılar.

Sütçü İmam Universitetinin Azərbaycandan olan 2-ci il tələbəsi Hemran Əmirli musiqi nömrələrini elan





etdikcə, salondakıların alqışları kəsilmirdi. Xəzər Universitetinin kamera orkestrinin, oğlan və qızlardan ibarət rəqs qruplarının, solistlərin professional çıxışları salondakıları valeh etmişdi. Türkiyə və Azərbaycanın dövlət bayraqları və hər iki universitetin pankartları ilə bəzədilmiş salonda tələbələrimizin ifaları sürəkli alqışlarla qarşılandı. İki saatdan artıq davam edən konsertin sonunda D. Deveci və H. İsaxanlı alqış sədaları altında səhnəyə dəvət olundular.

D. Deveci möhtəşəm konsert proqramı üçün nümayəndə heyətinə dərin təşəkkürünü bildirdi və səhnədəki xanımlara gül dəstəsi və universitetin hədiyyələrini təqdim etdi. Professor H.İsaxanlı da böyük qonaqpərvərliyə görə universitet rəhbərliyinə dərin təşəkkürünü bildirdi və D. Deveciyə, prorektor İsmayıl Bakana, M.Karaaslana, H. Əmirliyə yüksək təşkilatçılıq üçün "Təşəkkür" plaketi və hədiyyələr təqdim etdi.

Cahit Zerifoğlu konsert salonunda keçirilən proqrama Sütçü İmam Universitetinin bütün rəsmi şəxsləri – D. Deveci, prorektorlar İ.Bakan və Fatih Kıllı, dekanlar, departament müdirləri, çoxsaylı tələbələr, general C.Doğan və xanımı, TRT-Türk, Aksu, TRT-Avaz, Samanyolu televiziyaları, Anadolu Agentliyi, ölkə və yerli kütləvi informasiya vasitələrinin nümayəndələri böyük maraq göstərirdilər. Konsert proqramından sonra yuxarıda adları qeyd olunan media qurumları –televiziyalar, agentlik və qəzetlər geniş reportajlar verdi. Aksu televiziyası isə "Azərbaycan-Türkiyə: İki Canda Bir Ürək" adlı geniş proqramla Xəzər Universiteti kollektivinin çıxışlarını 2 milyona yaxın əhalisi olan Kahramanmaraş şəhərinin sakinlərinə çatdırdı.

Xəzər Universitetinin kollektivi həmin axşam saat 19-da Kahramanmaraş Məslək Yüksək Okulu (MYO) konsert salonunda planlaşdırılmış konsert proqramının hazırlıq işlərinə başladı. Sütçü İmam Universitetinin rəhbərliyi, başda prorektor İ.Bakan və digər çoxsaylı nümayəndələri, texniki heyət konsert proqramlarının yüksək səviyyədə keçirilməsi üçün hər cür köməklik göstərirdilər. Bütün universitet Xəzər Universitetindən gələn qonaqlar üçün səfərbər edilmişdi. Axşam MYO-nun idman salonu müəllim, tələbə və yerli sakinlərlə dolu idi. İdman salonunun geniş səhnəsi Xəzər Universiteti kollektivinin – kamera orkestrinin, rəqs qruplarının və solistlərin ixtiyarına verildi. `Salona toplaşan tamaşaçıların alqışları və "Bir daha! Bir daha!" sədaları kəsilmək bilmirdi.

Uyğulama Hotelinin VİP salonunda Sütçü İmam Universitetinin rektorluğu tərəfindən Xəzər Universiteti nümayəndə heyətinin şərəfinə rəsmi ziyafət verildi. Gecədən xeyli keçənədək davam edən ziyafətdə Xəzər





Universiteti kollektivinin şərəfinə xoş sözlər söyləndi. Universitetin yorğun heyəti istirahət etmək və sabahkı proqrama hazırlaşmaq üçün hotelə yollandı.

Martın 13-də səhər yeməyindən sonra qrupumuz Sütçü İmam Universitetinin avtobusu ilə 180 km uzaqlıqda yerləşən Kahramanmaraşın Elbistan vilayətinə yola düşdü.

Öncədən planlaşdırılmış proqrama əsasən, həmin gün səhər saat 09:30-da Kahramanmaraş valisi Mustafa Hakan Güvençer H.İsaxanlını və Ə. Əmirbəylini qəbul etdi. Görüş bir saatdan artıq çəkdi. Görüşün sonunda Xəzər Universiteti adından M.H.Güvençere H.İsaxanlının “Hazana övgü” kitabı və hədiyyə təqdim edildi. Görüşdə general C.Doğan, İ.Bakan iştirak etdilər. M.H.Güvençer də H.İsaxanlıya və Ə. Əmirbəyliyə hədiyyə təqdim etdi.

Həmin gün saat 11-də Kahramanmaraş Böyükşəhər Bələdiyyə başqanı Fatih Mehmet Erkoç da H. İsaxanlını və Ə. Əmirbəylini qəbul etdi. F.M.Erkoç Bakı şəhərində Xəzər Universiteti ilə birlikdə “Kahramanmaraşlılar Günü” keçirmək təklifini irəli sürdü. Xoş və uzun sürən görüşün sonunda bələdiyyə başqanına Xəzər Universitetinin hədiyyəsi təqdim olundu. F.M.Erkoç da H.İsaxanlıya və Ə.Əmirbəyliyə Kahramanmaraş Böyükşəhər Bələdiyyəsi adından hədiyyə təqdim etdi. Görüşdə İ. Bakan iştirak edir.





Avtobus saat 13:30-da Elbistana yetişdi. (Elbistanın 200 min əhalisi var). Elbistan MYO-nun girişində hər kəs qonaqları gözləyirdi. Okulun yeni təyin edilmiş müdiri, dosent Mustafa Küsek, Vilayət Jandarma Komandanı, polkovnik Şahin Çelik və digər şəxslər Xəzər Universiteti rəhbərliyini çox səmimi qarşıladılar. Birlikdə nahar edildi. Türkiyənin və Azərbaycanın rəsmi dövlət himnləri ilə konsert proqramı açıq elan edildi. Rəngarəng konsert proqramı salondakılar tərəfindən sürəkli alqışlarla qarşılandı. Samir Cəfərovun, Məhsəti Cabbarova, Elçin Feyzullayev, Günel Səbzəliyeva və Musa Abdullayevin ifaları, rəqqasların rəngarəng rəqsləri salondakıları valeh etmişdi. H.İsaxanlı səhnəyə qalxaraq, salona toplaşanlara dərin təşəkkürünü bildirdi. Okulun rəhbərliyi tərəfindən H.İsaxanlıya Elbistan Vilayətinin tablosu təqdim edildi.

Həmin gün Xəzər Universitetinin kollektivi Afşin Ashabi-Kehf ziyarətinə yollandı. 1200 illik tarixi olan ziyarətgah hər kəsin böyük marağına səbəb oldu. Ziyarətgahdan sonra Afşin Bələdiyyə Başqanlığı tərəfindən "xəzərli"lərə rəsmi ziyafət verildi. Ziyafətdə Xəzər Universiteti rəhbərliyinə və qrupun bütün üzvlərinə təşəkkür edildi. H.İsaxanlı da göstərdiyi qonaqpərvərliyə görə Afşin Bələdiyyə Başqanı M. F. Güvenə və iştirakçılara minnətdarlığını bildirdi.

Martın 14-də saat 14-də Bağçalı Evlər Qapalı İdman Salonu tamaşaçılarla dolmuşdu. H.İsaxanlı ilə birlikdə






Ə. Əmirbəyli general C.Doğanla onun ofisində görüşdülər. Görüşdə Sütçü İmam Universiteti Maliyyə İdarəsinin rəisi Cuma Ay da iştirak edirdi. Burada planlaşdırılan bir saatlıq eksklüziv konsert proqramı tez bir zamanda sona çatdı. Tamaşaçılar salonu tərk etmirdilər. Konsertdə rektorlar H. İsaxanlı, D. Deveci, prorektorlar, dekanlar və digər rəsmi nümayəndələr iştirak etdilər.

Həmin gün axşam Böyükşəhər Bələdiyyəsinin iki min yüz nəfərlik Mehmet Akif Ersoy Kültür Mərkəzində "Azərbaycan-Türkiyə. İki Canda Bir Ürək" adlı proqramın Kahramanmaraşda son qala - konserti oldu. Hər kəs həyəcanlı idi. Türkiyənin İstiqlal şairi Mehmet Akif Ersoyun adını daşıyan Kültür Mərkəzində konsert vermək böyük məsuliyyət tələb edirdi. Kültür Mərkəzi Azərbaycan və Türkiyənin dövlət bayraqları ilə bəzədilmişdi.

Salonun hər yerində Xəzər Universitetinin bayraqları və divarlarda isə çoxlu pankartları asılmışdı. Vali M.H.Güvençer, general C. Doğan və xanımı, H. İsaxanlı, D. Deveci, prorektorlar, dekanlar, çoxsaylı tələbələr, şəhər ictimaiyyətinin nümayəndələri, kütləvi informasiya vasitələrinin mənsublari və digərləri onlar üçün ayrılmış yerlərdə əyləşmişdilər. Türkiyənin İstiqlal Marşını və Azərbaycan Respublikasının Dövlət Himnini Xəzər Universitetinin tələbələri canlı ifa etdilər.





Rektor D. Deveci qonaq rektor H. İsaxanlı ilə birlikdə səhnəyə qalxıb, açılış nitqi söylədikdən sonra qala-konsert başladı. “Azərbaycan-Türkiyə. İki Canda Bir Ürək” adlı konsertin sonunda Samir Cəfərov, Məhsəti Cabbarova və Elçin Feyzullayev tərəfindən ifa edilən “Çırpınırdı Qara dəniz” mahnısı salondakıları riqqətə gətirdi. Türkiyə və Azərbaycan bayraqları dalğalanaraq, salonu bürüdü. “Bir daha! Bir daha! Bir daha!” sədalarından sonra “Çırpınırdı Qara dəniz” mahnısı tamaşaçıların təkidi ilə yenidən səsləndirildi. Kahramanmaraşda təhsil alan azərbaycanlı və türkiyəli tələbələr səhnənin önünə çıxaraq, bütün salon boyu rəqs etməyə başladılar.

D. Deveci və H. İsaxanlı səhnəyə dəvət edildilər. Hər iki rektor çox məmnun görünürdü. D. Deveci Xəzər Universiteti kollektivinə möhtəşəm konsert üçün dönə-dönə təşəkkürünü bildirdi və onlara hədiyyələrini təqdim etdi. D.Deveci 2015-ci ili Sütçü İmam Universitetində “Azərbaycan universitetləri ili” elan etdi və Xəzər Universitetinin kollektivini oktyabrın sonunda Kahramanmaraşa dəvət etdi. D.Deveci H.İsaxanlıya, Ə.Əmirbəyliyə, Z.Sadıqova -Yakarışıka, Samir Cəfərova, rəqs müəllimləri S.İsmayılovaya və T.Əliyevə plaket və hədiyyələr təqdim etdi. Konsertdən sonra D. Deveci Xəzər Universiteti kollektivinin şərəfinə “Camlı







Köşk"də rəsmi ziyafət verdi. Ziyafətdən sonra Türkiyənin məşhur MADO şirkətlər qrupunun rəhbərliyi tərəfindən Xəzər Universiteti və Sütçü İmam Universitetinin çoxsaylı kollektivinə dondurma qonaqlığı verildi. MADO-nun qurucusu, İdarə Heyəti başqanı Mehmet Sait və Yaşar Kambur tələbələrlə görüşdülər.

Kahramanmaraşdan ayrılmaq o qədər də asan olmadı. Kayseriyə yola düşərkən D. Deveci başda olmaqla universitetin bütün rəhbərliyi, general Ç. Doğan "Xəzərli"ləri yola salmaq üçün hoteldə idilər. H.İsaxanlı D.Deveciyə və digər universitet əməkdaşlarına böyük qonaqpərvərliyə görə bir daha dərin təşəkkürünü bildirdi.

5 saatlıq səfərdən sonra avtobus Kayseriyə yetişdi. Erciyes Universitetinin rəhbərliyi tərəfindən Xəzər Universitetinin kollektivinin şərəfinə "Polis Evi"ndə günorta yeməyi verildi. Kayseridəki bütün dostlar "Xəzərli"ləri görmək üçün orada idilər.

"Hızıroğlu" hotelində qısa istirahətdən sonra axşam saat 19-da şəhərin mərkəzində yeni açılmış "MOSAV" sərgi salonunda Xəzər Universiteti kamera orkestrinin 1 saatlıq konserti oldu. Konsert tamaşaçılar tərəfindən alqışlarla qarşılandı. Sərginin rəhbərliyi və orada yaşayan azərbaycanlı rəssam Nazim Məmmədov maraqlı konsertə görə dərin təşəkkürlərini bildirdilər. Konsertdən sonra "Konuk Evi"ndə Azərbaycandan gələn qonaqların şərəfinə yemək verildi. Yeməkdə H.İsaxanlı, Ə.Əmirbəyli, H. Yetim və M. Doğan, dekanlar, departament müdirləri və Kayserili köhnə dostlar iştirak edirdilər.

Martın 16-sı... Sabancı Kültür Mərkəzi Azərbaycan və Türkiyənin dövlət bayraqları, Xəzər Universitetinin bayraqları və pankartları ilə bəzədilmişdi. Salon tamaşaçılarla dolu idi. Erciyes Universitetində çalışan və təhsil alan azərbaycanlı müəllimlər və tələbələr Azərbaycan bayraqları ilə 2 saat öncə toplaşmışdılar. Salonu bəzəyərkən orada təhsil alan azərbaycanlı tələbələr "Xəzərli"lərə yaxından köməklik göstərirdilər.

Kayseri Sabancı Kültür Mərkəzində planlaşdırılan konsert Çanakkale zəfərinin 100 illiyinə və Novruz





Bayramına həsr olunmuşdu. Konsert Türkiyənin və Azərbaycanın dövlət himnlərinin ifası ilə başlandı. Solistlərimiz Məhsəti Cabbarova, Elçin Feyzullayev və Günel Səbzəliyevanın canlı ifalarını salondakılar ayaq üstə alqışladılar.

İki saatdan artıq sürən "Qardaşlıq konserti" Kayserinin "Kampus" televiziyası tərəfindən canlı olaraq yayımlandı; bununla yanaşı, TRT-Türk, Samanyolu, K-1 və digər televiziyalar, Türkiyənin Anadolu Agentliyi, həmçinin, ölkə və yerli mətbuat nümayəndələri tərəfindən izlənildi. Konsertin sonunda rektor əvəzi H. Yetim və H. İsaxanlı səhnəyə dəvət olundular. Onlar salona toplaşanlara dərin təşəkkürlərini bildirdilər. H.İsaxanlı Xəzər Universiteti adından Erciyes Universitetinin rektoru, professor Fahrettin Keleştimur adına hazırlanmış təşəkkür plaketini və qiymətli hədiyyəni H. Yetimə təqdim etdi. H.Yetim də Erciyes Universiteti adından hazırlanmış təşəkkür plaketlərini H. İsaxanlıya və Ə. Əmirbəyliyə təqdim etdi. O, Xəzər Universitetinin bütün kollektivinə Erciyes Universiteti adından hədiyyələr və gül dəstələri verdi. Konsertdən sonra qonaqların şərəfinə ziyafət verildi.

Martın 17-də səhər H.İsaxanlı F. Keleştimur tərəfindən rektorluqda qəbul edildi.

H.İsaxanlı proqramına uyğun olaraq, təyyarə ilə Kayseridən İstanbula, oradan isə Bakıya yola düşdü.

Həmin gün Böyükşəhər Bələdiyyə başqanı Mustafa Çelik universitetin qonaği oldu, Ə.Əmirbəyli də bu görüşdə iştirak etdi.

Axşam saat 19-da MOSAV sərgi salonunda Erciyes Universiteti rektoru tərəfindən çay süfrəsi təşkil edilmişdi. Rektor Xəzər Universitetinin bütün kollektivi ilə şəxsən görüşdü. Dünənki konsertdə iştirak edə bilmədiyi üçün təəssüfləndiyini bildirdi. MOSAV-da keçirilən görüşdə Xəzər Universitetinin, H.İsaxanlının adına yazılmış plaket Ə.Əmirbəyliyə təqdim edildi. MOSAV-dakı görüş Kayseri televiziyası tərəfindən lentə








alındı.

Erciyes Universitetində işləyən müəllim və tələbələr Azərbaycandan gəlmiş dostlarla birlikdə İlaxır Çərşənbəni tonqal ətrafında keçirdilər. Müəllim və tələbələr Ankaradan Bakıya yola düşdülər.

Ə. Əmirbəyli isə universitet rəhbərliyinin tapşırıqlarını həyata keçirmək üçün bir neçə gün Ankarada qalmalı oldu. Öncə YÖK-də, sonra Anayasa Məhkəməsinin üzvü Kadir Özkaya ilə görüşdü. Ədliyyə Akademiyasının rektoru professor Yılmaz Akçil ilə görüşdə akademiyanın rektoru H. İsaxanlını Ədliyyə Akademiyasının müdavimləri qarşısında məruzə etmək üçün rəsmi dəvət etdi.

Xəzər Universitetinin Türkiyə Respublikasına daha bir səfəri geridə qaldı…

***Əlövsət ƏMİRBƏYLİ,***
İctimai Əlaqələr və Media üzrə Direktor
Bakı-Kahramanmaraş-Kayseri-Ankara-Bakı
11–21.03.2015

*Kahramanmaraşda, Kayseridə keçirilən konsertlərin videosu Xəzər Universitetinin televiziyası ilə 2015-ci il martın 29-da nümayiş etdirilmişdir.*









## "POTENSİAL MƏKTƏB DİREKTORLARINA MƏKTƏBİN İDARƏ EDİLMƏSİ ÜZRƏ TƏLİM KURSLARI"NA QƏBUL İMTAHANI KEÇİRİLDİ

Martın 5-də UNICEF və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə universitetin "Neftçilər" kampusunda "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu" layihəsi üzrə qəbul imtahanı keçirilmişdir.

Keçiriləcək təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq, məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir.

## ENTRANCE EXAM FOR MANAGEMENT TRAINING COURSE FOR POTENTIAL SCHOOL DIRECTORS

On March 5th, 2015, an entrance exam was held as part of the Management Training Course for Potential School Directors that is jointly organized by UNICEF and Khazar University and is run on the university's Neftchilar campus.

The main goal of the training is to increase the knowledge and skills of current and potential school directors in accordance with the country's current education strategy and educational reforms as well as to introduce the course participants to global best practices in their field.



## POTENSİAL MƏKTƏB DİREKTORLARI ÜÇÜN BİRİNCİ MƏRHƏLƏNİN SON İMTAHANI

Martın 14-də UNICEF və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə universitetin "Neftçilər" kampusunda "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu" final imtahanı ilə yekunlaşmışdır. Qeyd edək ki, kurs 2014-cü il noyabrın 29-dan fəaliyyətə başlamışdı.

## FINAL EXAM COMPLETES MANAGEMENT TRAINING COURSE FOR POTENTIAL SCHOOL DIRECTORS

On March 14th, 2015, the final exam was held for the Management Training Course for Potential School Directors that is jointly organized by UNICEF and Khazar University and is run on the university's Neftchilar campus. The final exam concluded the course, which began on November 29, 2014.

## XƏZƏR UNİVERSİTETİNDƏ ÇİN YAZ BAYRAMI

Martın 4-də Xəzər Universitetinin Kitabxana - İnformasiya Mərkəzi (KİM) "Çin Yaz Bayramı" adlı tədbir keçirdi. Tədbiri açan KİM direktoru Gülşən Mehdiyeva qonaqları salamladı və KİM-in əməkdaşı Səidə Orucova ilə Çin Yaz Bayramı haqqında iki dilli təqdimatla çıxış etdilər.

Tədbirdə iştirak edən Konfusi İnstitutunun direktoru Xu Fenxua öz çıxışında tədbir iştirakçılarını salamladı və təşəkkür nitqi söylədi. Mərasimin davamı olaraq Çin müəllimlərinin və Xəzər Universitetinin tələbələrinin iştirakı ilə Talant Şousu nümayiş olundu və fəal iştirakçılara təşəkkürnamələr təqdim edildi.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirak etmişdir.

## CHİNESE SPRİNG FESTİVAL AT KHAZAR UNİVERSİTY

On March 4th, the Khazar University Library-Information Center (LIC) held a Chinese Spring Festival celebration. Gulshan Mehdiyeva, LIC Director, opened the event by greeting the participants. Then she and Saida Orujova, LIC staff member, gave a bilingual presentation about the Chinese Spring Festival.

Hu Fenghua, Director of the Confucius Institute, also made a speech to greet and thank participants. Then Khazar University students and Chinese instructors performed in a talent show. Certificates were given to active participants.

Prof. Hamlet Isaxanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, also participated in the event.





ÇİN YAZ BAYRAMI CHINESE SPRING FESTIVAL






# ОБЛАЧНЫЕ ДАЛИ

***Вот уже пять лет Хаяла Эйлазова – выпускница факультета Экономии и менеджмента Университета Хазар, старший менеджер по операциям Облачных решений (Cloud Business) Европейского центра Microsoft в Ирландии – живет в Дублине.***

...Облако, догнавшее все, что было до него, открывало замечательную перспективу. Оно стремительно развивалось, адаптировалось, расширяло сферу, быстро реагируя на малейшие изменения в окружающем мире. Облака были слишком хороши, чтобы не ухватиться за них. Удобны и просты в обращении, дают бесконечные возможности для расширения, экономят деньги и время, и еще многое другое. Когда идея облаков только еще начала получать современную реализацию, она училась ва норвежском университете бизнеса в Осло. Хотела увидеть мир за пределами Азербайджана. А получила намного больше.

*“Задать себе вопрос - чего я хочу? - в действительности, трудно. Потому что вслед за ним должно следовать: а что я сделала? Мы периодически задаемся этими вопросами, и иногда, увы, даем им себя победить - должно быть наоборот. Если же с этим разобрались откровенно и точно, тогда должны ещё понимать, что никто не будет помогать вам, чтобы осуществить вашу мечту. Но вы все равно выиграете, потому что в итоге будете не только успешны, но и счастливы.”*

Вот уже пять лет Хаяла Эйлазова - старший менеджер по операциям Облачных решений (Could Business) Европейского центра Microsoft в Ирландии - живет в Дублине. Быть частью огромного мира под названием Microsoft - это и ее причастность к Большому миру. Там, где время измеряется скоростью мысли, а единственным производным капиталом является человеческое воображение, лучшим способом предсказать будущее считается возможность сделать его самому.

*“Microsoft является очень динамичным, глобальным местом работы. Мы постоянно ищем инновационных и творческих людей. А здесь ты попадаешь в окружение такого количества талантливых, умных сотрудников, с многолетним опытом работы, которые всегда готовы помогать, поделиться своими знаниями, что просто не можешь не расти. В компании четко выраженная матрицированная модель организациии, следовательно, для того, чтобы быть успешным, необходимо продемонстрировать хорошие навыки совместной работы, И моя нынешняя позиция дает мне прекрасную возможность для сотрудничества, чтобы представлять Microsoft Could Business и помогать компаниям в достижении их целей.”*

Само по себе название «облачные технологии» звучит достаточно сказочно и волшебно. Ну, а если вдуматься, то возможности и свободы, которые предоставляют сегодня облачные сервисы, еще вчера в самом деле казались сказкой. А вот что действительно Хаяла считает настоящим волшебством, так это природу, во всех ее красках, картинах и образах.

*“Я люблю фотографировать. Для меня - это способ показать миру, кто я есть на самом деле. Иногда картинка стоит тысячи слов. Всё началось еще когда я жила в Норвегии. Красота природы этой страны очень воодушевила меня. В Ирландии каждый регион - это разные, но восхитительные пейзажи. Я даже достигла определенных успехов: одна из моих работ - «Душевное спокойствие» - была опубликована в США, в издании книги «Explore», другие неоднократно продавались в Ирландии, на благотворительных мероприятиях в поддержку борьбы против рака.*

*Моя самая любимая коллекция фотографий было сделана в прошлом году в Кении. Еще на стадии «предвкушения поездки» я пыталась выяснить, в каком парке лучше фотографировать животных. Это было путешествие в другой мир. Все, о чем так долго мечталось, распростерлось перед глазами во всей красе. Есть у меня еще одна большая мечта: учредить благотворительную организацию. Я считаю, для каждого из нас есть время, когда мы берем что-то из этого мира, и время, когда нужно что-то ему дать.”*

**AQ, Весна 2015**



# TURİZMİN İNKİŞAFI İLƏ BAĞLI BEYNƏLXALQ LAYİHƏ

Avropa Birliyinin TEMPUS proqramı çərçivəsində həyata keçirilən "Davamlı turizmin idarə olunması sahəsində beynəlxalq bakalavr və magistr proqramları üçün yeni modulların hazırlanması" layihəsinin rəhbərləri martın 10-da Naxçıvan Dövlət Universitetində işgüzar səfərdə olublar. Layihənin meneceri, Almaniyanın Yade Tətbiqi Elmlər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Gila Altmann, layihənin rəhbər komitəsinin üzvü, birinci işçi qrupunun rəhbəri, Almaniyanın Vorms Tətbiqi Elmlər Universitetinin vitse-prezidenti, professor Knut Scherhag universitet kampusunu gəzərək tədris prosesi, maddi-texniki baza ilə tanış olublar. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qonaqlara universitetdə müasir texnologiyalardan istifadə barədə məlumat verib.




Sonra 2012-ci ildən təməli qoyulan "Davamlı turizmin idarə olunması sahəsində beynəlxalq bakalavr və magistr proqramları üçün yeni modulların hazırlanması" layihəsi ilə bağlı məsələlər müzakirə olunub. Qeyd olunub ki, 30 universitetin təmsil olunduğu, İrlandiya, Latviya kimi Avropa ölkələrinin də tərəfdaşı olduğu layihənin əsas məqsədi davamlı turizmin idarə olunması üzrə kurikulumların müasirləşdirilməsi və davamlılıq prinsipləri haqqında birgə anlayışı inkişaf etdirməkdir. Layihənin Naxçıvan üzrə koordinatoru, universitetin Beynəlxalq münasibətlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Şamxal Məmmədov bu istiqamətdə bir sıra işlər görüldüyünü bildirib.

Müzakirə zamanı layihənin müddətinin bir il daha uzadılması, layihə çərçivəsində universitetdə Turizm Mərkəzinin yaradılması, onlayn treninqlərin keçirilməsi və eləcə də xarici mütəxəssislərin treninq keçməyə dəvət edilməsi, layihə bitdikdən sonra da universitetlərarası əməkdaşlığın davam etdirilməsi ilə bağlı məsələlərdən bəhs olunub. Gila Altmann universitetdən zəngin təssüratlarla ayrıldığını söyləyib. Bildirilib ki, cox zəngin və qədim tarixə malik Naxçıvanda turizm növlərinin inkişafı üçün geniş potensial, əlverişli şərait vardır. Adı çəkilən layihə də məhz buna xidmət edəcək.

# FRANKOFONİYA BAYRAMI

Martın 16-da Naxçıvan Dövlət Universitetində Frankofoniya bayramı qeyd olunub. Tədbir Azərbaycanın və Fransanın dövlət himnlərinin ifası ilə başlayıb. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov giriş sözü ilə çıxış edərək, fransız dilinin dünyada qəbul olunan əsas beynəlxalq dillərdən biri olduğunu, xarici dillərin, o cümlədən fransız dilinin öyrənilməsinin dünyaya inteqrasiya, ölkələrarası siyasi, elmi, mədəni əlaqələrin gələcək inkişafı baxımından zəruri olduğunu vurğulayıb.

Rektor bu istiqamətdə universitetdə görülən işləri yüksək dəyərləndirərək bildirib ki, bu yaxınlarda Fransanın ali dövlət mükafatı - Akademik Palma (Kavaler dərəcəsi) ordeni ilə təltif edilən Azərbaycan təhsilinin dörd nümayəndəsindən biri Naxçıvan Dövlət Universitetinin fransız dili kafedrasının müdiri, dosent Əli Allahverdiyevdir.



Fransız dili müəllimliyi ixtisasının III kurs tələbəsi Gözəl Hümbətova Frankofoniyanın tarixi haqqında məlumat verərək bildirib ki, cox qədim tarixə malik, fransız dilində danışanların bayramı olan Frankofoniya hər il dünyanın 50-dən cox ölkəsində keçirilir. Bu, fransız dilinə, mədəniyyətinə dünya xalqlarının yüksək ehtiramının əlamətidir. Naxçıvan Dövlət Universitetində Frankofoniya bayramının qeyd olunması 1998-ci ildən etibarən ənənə halını alıb. Bu işdə universitetin Roman - german dilləri kafedrasının müəllimlərinin danılmaz əməyi var.

Fransız dili müəllimliyi ixtisası tələblərinin iştirakı ilə "Dədə Qorqud" və "Koroğlu" dastanlarından, dahi Azərbaycan şairi M.Füzulinin "Leyli və Məcnun" poemasından, M.F.Axundovun "Hekayəti müsyo Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadüküni məşhur", H.Cavidin "Şeyda" dramlarından parçalar fransız dilində səhnəlişdirilib.

Tələbə mobilliyi əsasında universitetdə fransız dilini tədris edən Jeremie Chevalierin tələbələrlə birgə ifa etdiyi musiqi nömrələri, dahi bəstəkar Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasından fransız dilində təqdim olunan səhnələr alqışlarla qarşılanıb.

*Mehriban SULTAN,*
*Naxçıvan Dövlət Universitetinin Mətbuat şöbəsinin müdiri*




## "MARKETİNQ VƏ UNİVERSİTETLƏRİN ÖMÜRBOYU TƏHSİLİNDƏ REGİONAL ƏMƏKDAŞLIQ"

"Universitetlərin Ömürboyu Təhsil İnstitutu kimi rolunun gücləndirilməsi" Tempus layihəsi çərçivəsində fevralın 9-14-də İvane Cavaxişvili adına Tiflis Dövlət Universitetində "Marketinq və universitetlərin ömürboyu təhsilində regional əməkdaşlıq" mövzusunda treninqlər keçirilmişdir. Tədbirdə universitetimizin əməkdaşı, İnkişaf mərkəzinin layihə rəhbəri Ülkər Bayramova iştirak etmişdir. Tallin Universitetinin "Marketinq və kommunikasiya" ofisinin rəhbəri Kadri Kiigema və Ann Leppiman tərəfindən keçirilmiş treninqlərdə, həmçinin, Qafqaz Universitetinin əməkdaşı, Gürcüstan və Ermənistandan olan partnyor universitetlərin əməkdaşları iştirak etmişlər.

Treninqlərin sonunda layihə çərçivəsində nəzərdə tutulan növbəti tədbirlərin planı müzakirə olunmuş və bu il aprelin 14-16-da Azərbaycanda konfrans keçirilməsinə qərar verilmişdir.

## "REGIONAL PARTNERSHIP IN LIFELONG LEARNING IN UNIVERSITIES AND MARKETING"

On February 9-14, a training program on "Regional Partnership in Lifelong Learning in Universities and Marketing" was held at Ivane Javakhishvili Tbilisi State University as part of the "Strengthening the Specific Role of Universities as Lifelong Learning Institutions" Tempus project. Ulker Bayramova, Khazar University's Development Center Project Manager, participated in the event, which was led by Kadri Kiigema of the Marketing and Communications Office at Tallin University and Ann Leppiman. Other participants included representatives from Qafqaz University and other Georgian and Armenian partner universities. At the end of the training, a plan for upcoming events was discussed and a decision was made to hold a conference in Azerbaijan on April 14-16.



## GRAZ UNİVERSİTETİNDƏ ESFIDIP TEMPUS LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ GÖRÜŞ

Fevralın 15-19-da Xəzər Universitetinin "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsinin koordinatoru Rima Məmmədova yerli partnyorlarla birlikdə layihənin Avropa partnyorlarından biri olan Avstriyanın Graz universitetində keçirilən görüşdə iştirak etmişdir. Azərbaycan universitetlərindən olan nümayəndələr Graz universitetinin "Əlilliyi Olan Şəxslər üçün Resurs Mərkəzi"nin fəaliyyəti və xidmətləri, Mərkəzin istiadə etdiyi xüsusi texnologiya və əlilliyi olan şəxslərin tələbatlarının nəzərə alınaraq rekonstruksiya olunmuş mühazirə zalları, onlar üçün xüsusi imtahan şəraitinin yaradılması və həyata keçirilməsi ilə tanış olmuşlar.

Proqram çərçivəsində "Tələbələr üçün Psixoloji Məsləhət Mərkəzi"nin direktoru və əlillliyi olan müəllimlər ilə görüşlər təşkil olunmuşdur. Görüşlər zamanı tərəflər fikir və təcrübələrinə əsasən maraqlı müzakirələr aparmışlar. Bundan başqa, partnyorlar "Selbstbestimmt Leben" ("Müstəqil həyat") təşkilatının üzvləri ilə görüşmüş və təşkilatın məqsədi, gələcək planları və əlilliyi olan şəxslərin cəmiyyətdə sərbəst yaşamaları üçün həyata keçirilə biləcək fəaliiyətləri haqqında məlumatlandırılmışlar.

Üç günlük proqram çərçivəsində bütün yerli partnyorlar və "Əlilliyi Olan Şəxslər üçün Resurs Mərkəzi"nin işçiləri əlilliyi olan şəxslərin ali təhsil müəssisələrinə inteqrasiyası mövzusu ilə əlaqədar mövcud olan problemləri, onların həll üsulları və s. müzakirə etmiş və təcrübələrini bölüşmüşlər.

## ESFIDIP TEMPUS POJEST MEETING AT GRAZ UNIVERSITY

On February 15-19, 2015, Rima Mammadova, coordinator of the Tempus project on "The Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) and other local partners attended a meeting which was held at Graz University, one of the European partners of the project. The local partners were acquainted with the activities and services of the Disability Resource Center at Graz University. They took a tour through the university to see various lecture halls which were adapted to the needs of people with disabilities. Delegates from Azerbaijani universities also got acquainted with the assistive technology at the Disability Resource Center as well as procedures for exams for people with disabilities at the university.

Meetings were also held with the Psychological Counselling Service for Students and a lecturer with a disability. They shared their experiences, explained their services and answered delegates' questions. Delegates from Azerbaijani universities also met with the staff of the Selbstbestimmt Leben Steiermark organization. During the meeting, the mission and activities of the organization was presented, and the plans and activities related to the initiatives for the promotion of independent living of people with disabilities were discussed.

During the 3 days of meetings, all local partners met with the staff of the Disability Resource Center to discuss challenges, obstacles and problems concerning the integration of people with disabilities into HEIs. They shared their ideas and experiences.





## QONAQ MÜHAZİRƏÇİLƏR SEMİNARLARI

UNICEF və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə Xəzər Universitetinin Neftçilər kampusunda başlamış "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu"nda "Qonaq Mühazirəçilər Seminarları" davam edir. Fevralın 17-də Mərmər salonda təşkil edilən seminarda məruzəçi qonağımız Təhsil Nazirliyinin əməkdaşı Emin Əmrullayev idi.

"Ümumtəhsil məktəblərində idarəetmə problemləri" adlı seminar mövzusu ilə çıxış edən E. Əmrullayev potensial məktəb direktorlarının diqqətini ən son keçirilən Milli Qiymətləndirmə tədqiqatının nəticələrinə çəkərək, şagirdlərin riyaziyyat və Azərbaycan dili fənlərindən qazandıqları nailiyyətləri, şagird nailiyyətinə təsir edən amilləri təhlil etdi, iştirakçıların suallarına cavab verdi.

## GUEST lECTURER SEMINARS

On February 17th, the most recent seminar in the Management Training Course for Potential School Directors (jointly organized by UNICEF and Khazar University) was held in Khazar University's Marble Hall. The guest speaker was Emin Amrullayev from the Ministry of Education.

He spoke on "Administration Issues in General Education Schools" and mentioned the results of the latest National Evaluation research, achievements of pupils in mathematics and Azerbaijani language, and factors that motivate pupils' accomplishments. At the end of the event, he answered participants' questions.

## MƏDƏNİYYƏT KANALINDA HAMLET İSAXANLININ MÜHAZİRƏSİ

Martın 1-də "Mədəniyyət" kanalında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Qədim yazı sistemləri və sivilizasiyalar" mühazirəsi efirə verildi.

## "AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALI REDAKSİYASININ NÖVBƏTİ İCLASI

Martın 4-də Tarix və arxeologiya departamentində "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru Qüdrət İsmayılzadə, redaksiya heyətinin üzvləri – Tarix Dostiyev, Roza Arazova və Aygün Qaşəmovanın iştirakı ilə iclas keçirildi. İclasda "Azərbaycan arxeologiyası" jurnalının yeni nömrələri üçün hazırlanan elmi məqalələrin keyfiyyəti və jurnalla bağlı digər məsələlər ətraflı müzakirə olundu.

## BEYNƏLXALQ ELMİ KONFRANSDA

Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi İlahə Qurbanova fevralın 16-17-də Dubay şəhərində keçirilmiş "Biznes strategiyası və sosial elmlər" adlı II Beynəlxalq elmi konfransda "İkidilli mühitdə bəzi Azərbaycan dialektləri" mövzusunda məruzə ilə çıxış etmişdir.

## INTERNATIONAL CONFERENCE

On February 16-17, Ilaha Gurbanova, instructor of the Khazar University Department of Azerbaijani Language and Literature, participated in the II International Conference on Business Strategy and Social Sciences in Dubai. She gave a lecture on "Certain Azerbaijani Dialects in Bilingual Environments."



## TƏQDİMAT: Real English® PRESENTATION

Fevralın 18-də Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı ilə Neftçilər korpusunda tələbələr üçün "Real English" ingilis dili kursları ilə bağlı təqdimat keçirilmişdir. Təqdimatı "Real English"-in təsisçisi Rəvan Soltanov aparmışdır. "Real English" R.E.P (ingiliscə düşün) proqramını Azərbaycanda ilk və tək həyata keçirən ingilis dili kursudur.

Təqdimat nəzəri yanaşma; psixoloji amillər; nöqsanlar; ingilis dilində düşünmə tərzi və onun strategiyası; Azərbaycanda müxtəlif sahələr üzrə ingilis dilinin uğursuzluğu; ingilis dilinin düzgün ölçü dərəcələri və s. mövzuları əhatə etdi.

Sonda iştirakçılara bukletlər paylanılmış, onların sualları cavablandırılmışdır.

On February 18th, the Khazar University Career Center organized a presentation of Real English courses for students on the Neftchilar campus. The presentation was made by Ravan Soltanov of Real English, who explained that the "Real English R.E.P." ("Think in English") Course is the first and only course of its kind in Azerbaijan.

The presentation covered the course's theoretical approach, psychological factors, strategies to think in English; the shortcomings of the English language in various fields in Azerbaijan; correct ways to measure English proficiency and other topics. At the end of the event, participants were given booklets and their questions were answered.

## "MARKETİNQ" MÖVZUSUNDA SEMİNAR

Fevralın 20-də Xəzər Universitetində Tələbə Məclisinin rus bölməsinin tələbələri üçün təşkil etdiyi "Marketinq" mövzusunda seminar keçirildi. Təlimçi "Biznes Dialoq" biznes klubunun prezidenti, təcrübəli marketinq mütəxəssisi Aleksandr Məhərrəmov idi.

Seminarda "Müasir marketinq ideyaları", "Marketinqdə 4 əsas amil", "Məhsulu alıcılara necə təqdim etməli", "Müştərilərlə və peşəkarlarla necə ünsiyyət qurmalı" və s. mövzular əhatə olundu.

Sonda iştirakçıları maraqlandıran suallara cavab verildi və onlara sertifikat təqdim edildi.



## "XƏZƏR"İN "XƏZƏR"Lİ QONAQLARI

Martın 3-də Xəzər Universiteti Təhsil fakültəsinin filologiya ixtisası üzrə tələbəsi Jalə Abbasovanın "XX əsr Azərbaycan nəsri" fənnindən Saday Budaqlının yaradıcılığına həsr olunmuş təqdimatı oldu. Təqdimatda "Xəzər" tərcümə jurnalının baş redaktorunun müavini Saday Budaqlı və jurnalın redaktoru Zahid Sarıtorpaq da iştirak etdilər.

Fənn müəllimi dosent Dilbər Zeynalova yazıçının yaradıcılığı haqqında qısa məlumat verdikdən sonra yazıçı yaradıcılıq sirrləri, əsərlərinin yazılma tarixi və metodu ilə bağlı fikirlərini söyləmiş, tələbələrin suallarını cavablandırmışdır. Dərsdə iştirak edən Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri dosent Vurğun Əyyub və həmin departamentin müəllimi, filologiya üzrə fəlsəfə doktoru İlahə Qurbanova da yazıçının yaradıcılığı barədə fikirlərini bölüşmüşlər. Dərsin sonunda şair Zahid Sarıtorpaq tələbələrin arzusu ilə şeirlərini oxumuşdur.

## DEPARTAMENT MÜDİRİMİZ İSVEÇ UNİVERSİTETLƏRİNDƏ MÜHAZİRƏ OXUMUŞDUR

Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, Avropa İnteqrasiyası üzrə Jan Monne Kürsüsü mükafatı laureatı, fəlsəfə doktoru Muxtar Hacızadə fevralın 26-27-də İsveç Krallığında səfərdə olmuşdur. Xocalı soyqırımının 23-cü ildönümü günlərində baş tutan səfər zamanı M. Hacızadə Gothenburg Universitetində və Linköpings Universitetində Cənubi Qafqazda Təhlükəsizliyə Təhdidlər və Regional Əməkdaşlıq İmkanları haqqında mühazirə oxumuşdur.

Tədbirlərdən Azər TAc-ın yaydığı xəbərləri aşağıdakı linklərdə oxuya bilərsiniz:

*http://azertag.az/xeber/Hoteburq_Universitetinde_Xocali_soyqirimi_ile_bagli_heqiqetlerden_danisilib-835269*

*http://azertag.az/xeber/Linkopinq_Universitetinin_telebeleri_Xocali_soyqirimi_barede_melumatlandirililar-835646*

## DEPARTMENT HEAD GIVES LECTURE IN SWEDISH UNIVERSITY

Dr. Mukhtar Hajizada, Head of the Khazar University Department of Political Science and International Relations as well as Jean Monnet Chair for European Integration, visited the Kingdom of Sweden on February 26-27. On his trip, which fell during the time of the 23rd anniversary of the Khojaly massacre, he gave lectures on "Security Threats and Regional Partnership Opportunities in the South Caucasus" at Gothenburg University and Linköpings University.

You can read the articles about these events as printed by Azer TAc at the following links:

*http://azertag.az/xeber/Hoteburq_Universitetinde_Xocali_soyqirimi_ile_bagli_heqiqetlerden_danisilib-835269*

*http://azertag.az/xeber/Linkopinq_Universitetinin_telebeleri_Xocali_soyqirimi_barede_melumatlandiriliblar-835646*

## TƏLƏBƏLƏRİMİZ RƏSM MÜSABİQƏSİNİN TƏBLİĞATI İLƏ BAĞLI GƏZİNTİDƏ

Martın 15-də və martın 28-də Xəzər Universitetinin tələbələrindən ibarət heyət Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə gerçəkləşdirilən "Azərbaycanın tarixi-memarlıq irsi gənclərin gözü ilə" rəsm layihəsinin icrası ilə əlaqədar layihənin əsas tərəfdaşlarından biri kimi Bakı şəhərinin görməli tarixi-memarlıq abidələri ətrafında həmin rəsm müsabiqəsinin təbliğatı ilə bağlı fəaliyyət göstərmişdir.

Tarix - memarlıq nümunələrimizin təbliğinə, maddi-mədəni irsimizin tanıtımına yönəlmiş "Azərbaycan tarixi-memarlıq irsi gənclərin gözü ilə" rəsm layihəsinin ideya rəhbəri və könüllüləri bir sıra tarixi abidələrimizin rəsmlərini çəkmiş, onların tarixi haqqında qısa məlumat əldə etmişlər.

## XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNİN ELMİ MƏQALƏSİ TÜRKİYƏDƏ ÇAP OLUNMUŞDUR

Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin əməkdaşı Elza İsmayılovanın "Koroğlu şeirlərində Türk mənşəli arxaizmlər" adlı elmi məqaləsi Türkiyədə çap edilmişdir.

Məqalə E.İsmayılovanın 2012-ci il mayın 31-dən iyunun 2-dək Atatürk Universiteti Narman Yüksek Okulunun təşkilatçılığı ilə Ərzrum Universitetinin Mədəniyyət və Sərgi Mərkəzində keçirilmiş "I Beynəlxalq Aşıq Sümmani və Aşıqlıq Ənənəsi Simpoziumu"ndakı çıxışı əsasında tərtib olunmuşdur.

## KHAZAR UNIVERSITY INSTRUCTOR'S ARTICLE PUBLISHED IN TURKEY

A scholarly article entitled "Turkic-origin Archaisms in Koroghlu's Poetry" by Elza Ismayilova, instructor of the Department of Azerbaijani Language and Literature at Khazar University, was published in Turkey.

The article was based on E.Ismayilova's presentation at the 'I International Ashug Summit and Symposium on Ashug Traditions" on May 31- June 2, 2012, which was held in the Erzurum University Culture and Exhibition Center with the coordination of Ataturk University's Narman High School.




## "ELM ÜÇBUCAĞI" PROQRAMININ NÖVBƏTİ VERİLİŞİ

2015-ci il martın 29-da İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi oldu. Veriliş "Doktorluq elmi dərəcəsi: keçmiş və indi" mövzusuna həsr olunmuşdu.

Universitetin əməkdaşları da dinləyici qismində verilişdə iştirak edirdilər.

## YAPONİYALI ALİM "XƏZƏR"DƏ

Martın 4-də Yaponiyanın Azərbaycandakı Səfirliyinin attaşesi Toşihiro Katagiri və Hosei Universitetinin (Tokio, Yaponiya) professoru Nobyo Simotomai Xəzər Universitetində olub, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdülər. Görüşdə H.İsaxanlı qonaqlara Xəzər Universtitetinin tarixi, missiyası, fəaliyyəti, akademik quruluşu haqqında ətraflı məlumat verdi.

Qonaqlar isə H.İsaxanlıya International Council for Central and East European Studies (Orta və Şərq Avropaşünaslıq üzrə Beynəlxalq Komitə) təşkilatının 2015-ci il avqustun 3-8-də Yaponiyanın Makuhari şəhərində keçiriləcək 9-cu Dünya Konqresi haqqında məlumat, materiallar verdilər. Qeyd edək ki, Dünya Konqresi beş ildə bir dəfə keçirilir.

## JAPANESE SCHOLAR VİSİTS KHAZAR

On March 4th, Toshihiro Katagiri, Attache to the Japanese Embassy in Azerbaijan, and Professor Nobyo Simotomai of Hosei University (Tokyo, Japan) visited Khazar University and met with Prof. Hamlet Isaxanli, founder of the university and Chairman of its Board of Directors and Trustees, who gave the guests information about Khazar University's history, activities, mission and academic structure. The guests informed H.Isaxanli about the 9th World Congress organized by the International Council for Central and East European Studies, which will be held in Makuhari, Japan on August 3-8, 2015. The World Congress is held once every five years.

## TƏLƏBƏLƏR ÜÇÜN TƏLİM





Martın 6-da Xəzər Universitetinin Karyera mərkəzi Neftçilər korpusunda tələbələr üçün "Mühəndislərin ixtisaslarına uyğun CV-lərin, niyyət məktublarının yazılması və texniki intervyudan uğurla keçməsi haqqında" təlim keçirdi. Təlimçi "ABB LTD" şirkətindən Fərid Abbasov idi.

Təlimdə CV-nin necə yazılması, xarici neft və qaz şirkətlərinə təcrübə proqramları ilə əlaqədar necə müraciət edilməsi və mövzuya aid digər məsələlər haqqında ətraflı məlumat verildi, tələbələrin sualları aydınlaşdırıldı.

## HAZIRLIQ KOMİTƏSİNİN İCLASINDA

Martın 3-də JW Marriott otelində Londonun "Society of Petroleum Engineers" (Neft Mühəndisləri Cəmiyyəti) təşkilatının 2015-ci ilin noyabr ayında Bakıda keçiriləcək "İllik Xəzər Texniki Konfrans və Sərgisi" tədbirinə hazırlıq komitəsinin iclası keçirildi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da komitə üzvü olaraq iclasda iştirak etdi.

## AT PREPARATORY COMMITTEE MEETING

On March 3rd, the first Program Committee meeting of the London-based Society of Petroleum Engineers was held at the JW Marriott Hotel in Baku to plan for the Annual Caspian Technical Conference and Exhibition to be held in Baku in November 2015.

Prof. Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, participated in the meeting as a committee member.

## ATİB-NİN İLLİK HESABAT YIĞINCAĞINDA

Fevralın 28-də Park-inn otelində Azərbaycan-Türkiyə İş Adamları Birliyinin (ATİB) illik hesabat toplantısı keçirildi. Toplantı Azərbaycanın Dövlət himni və Türkiyənin İstiqlal Marşı ilə açıq elan olundu. Qurumun illik hesabatı dinlənildi. Hesabat ətrafında çıxışlar oldu.

Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri İsmail Alper Çoşkun, Millət vəkilləri Jalə Əliyeva, Ziyad Səmədzadə və digər qonaqlar çıxış etdilər.

Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli hesabat yığıncağında iştirak etdi. O, yığıncaqda şıxış edərək, toplantı iştirakşılarına Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Hamlet İsaxanlının salamlarını çatdırdı, universitet haqqında məlumat verdi və iş admlarını əməkdaşlıq üçün Xəzər Universitetinə dəvət etdi.

## AZERBAIJAN-TURKEY BUSINESS ASSOCIATION MEETING

On February 28th, an annual meeting of the Azerbaijan-Turkey Business Association was held at Park Inn Hotel. The meeting was opened with the Hymn of the Azerbaijan Republic and the Independence March of Turkey. Then the association's annual report was made. Speeches were made about the report. His Excellency Ismail Alper Coskun, Extraordinary and Plenipotentiary Ambassador of Turkey to Azerbaijan, Members of Parliament Jala Aliyeva and Ziyad Samadzada, and other guests also made speeches.

Alovsat Amirbeyli, Director of Public Relations and Media for Khazar University, also participated in the meeting. He made a speech to pass on greetings from Hamlet Isaxanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and to give information about the university. He invited businessmen to visit the university for partnership discussions.

## BİZNESDƏ ÜNSİYYƏT VƏ LİDERLİK



Martın 11-də Xəzər Universitetinin Karyera mərkəzi "Neftçilər" korpusunda tələbələr üçün "Biznesdə ünsiyyət və liderlik" təlimi keçirdi. Təlimçi Xəzər Universitetinin müəllimi Şaravani Sarbadhinakri *(Shravani Sarbadhinakry)* idi. Təlimdə liderlik, lider olmağın yolları haqqında danışıldı. Təlimçi qeyd etdi ki, liderin bacarığı yalnız bir sahə üzrə deyil, bir neçə sahə üzrə olmalıdır. Təlimdə bir sıra intellektual oyunlar keçirildi. Sonda isə tələbələrin sualları cavablandırıldı.

## MƏDƏNİ İRS VƏ ARXEOLOJİ TURİZM

Martın 10-da Xəzər Universitetində Tarix və arxeologiya departamenti və Tələbə Məclisinin birgə təşkilatçılığı ilə MİRAS –Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi tərəfindən "Mədəni irs və arxeoloji turizm" mövzusunda elmi-praktik konfrans keçirildi. Tədbiri giriş sözü ilə universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli açdı.

MİRAS İctimai Birliyinin sədri Fariz Xəlilli məruzəsində Orta əsr Ağsu şəhəri arxeoloji turizm kompleksi haqqında geniş məlumat verdi və universitetin tələbələrini Ağsu arxeolji ekspedisiyasının Qafqaz Albaniyasına məxsus Mehrəvan qalasında təşkil edəcəyi arxeoloji düşərgəyə dəvət etdi.

# HOW MUSLIM AZERBAIJAN HAD SATIRE YEARS BEFORE CHARLIE HEBDO

***Khazar Review editor's note**: The Molla Nasreddin journal criticized ignorance, but did not touch issues pertaining to Muslims' faith. The European criticism of Muslims including the Prophet (such as Charlie Hebdo) would not have been considered acceptable by the Molla Nasreddin journal or by Mirza Jalil. This reference to Molla Nasreddin by BBC is commendable, but the name under which BBC chose to present it is unfortunate and does not adequately reflect the essence of the journal.*




In this cartoon, the magazine depicts a prison with windows and a house of Muslim women with none



First issue of Molla Nasreddin magazine. 1906

**28 February 2015**
**By Konul Khalilova**
BBC News Europe

**More than 100 years before militant Islamist gunmen murdered journalists at France's satirical magazine Charlie Hebdo, another magazine very similar in style was playing an important role among the Muslim populations of both the Russian and Persian empires.**

Azerbaijani weekly magazine Molla Nasreddin was revolutionary for its time, bravely ridiculing clerics and criticising the political elite as well as the Russian Tsar and the Shah of Persia.

http://www.ozcanbortepe.com/ahi-evran-ve-ahilik.htm

http://www.ahilik.gen.tr/kavram/index.html

http://www.hizmetgazetesi.net/modules.php?name=News&file=print&sid=9095

http://sbe.erciyes.edu.tr/dergi/sayi_11_08_Tastan_1.pdf

http://www.islamisite.com/content/nizami-gencevi

Hüseynov, Refael (2005). *Mehseti Gencevi – Özü, Sözü, İzi*. Bakı: Nurlan

Krımskiy, E. (1981). *Nizami i Eqo Sovremenniki*. Baku: Elm

Memmedov, Qurban (1962). *Nizami Gencevi'nin İctimai ve Siyasi Görüşleri.* Bakı: Azerneşr

Qeydarov, M. (1987). *Soçialno-Ekonomiçeskie Otnoşeniya i Remeslennıe Orqanizaçii v Qorodax Azerbaydjana v XIII-XVII vv*. Baku: Elm

Resulzade, Mehmet Emin (1951), *Azerbaycan Şairi Nizamî*. Ankara: Millî Eğitim Basımevi

Seferli, Eliyar – Yusifov, Xelil (1982). *Qedim ve Orta Esrler Azerbaycan Edebiyyatı.* Bakı: Maarif Neşriyatı

www.Exi-Mehmet_rihtim.htm

# TƏSİSÇİNİN DEPARTAMENTƏ HƏDİYYƏSİ

Fevralın 24-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Tarix və arxeologiya departamentinə unikal xəritələr hədiyyə etdi. 50-dək olan bu xəritələrdə Azərbaycan tarixinin rus işğalı altında olan dövrü mərhələlərlə öz əksini tapmışdır. XVIII əsrin II yarısında mövcud olmuş Azərbaycan dövlətlərinin sərhədlərinin, etnik mənzərəsinin və müasir Azərbaycanın sərhədlərinin əks olunduğu vahid xəritə xüsusilə diqqəti cəlb edir.

Dərslərdə Azərbaycan tarixi üçün istifadə ediləcək vəsaitlərin zənginləşdirilməsi sahəsindəki bu təşəbbüsünə görə Tarix və arxeolo-giya departamenti H.İsaxanlıya minnətdarlığını bildirir.



# "ELM ÜÇBUCAĞI" PROQRAMININ NÖVBƏTİ VERİLİŞLƏRİ

Fevralın 15-də İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi oldu. Veriliş "Təhsildə keyfiyyət konsepsiyası, keyfiyyətin ölçülməsi, dünya təcrübəsi"nə həsr olunmuşdu.

Martın 1-də isə H. İsaxanlı "Elm üçbucağı" proqramının növbəti verilişində ali təhsildə Avropa və Amerika ənənələrindən danışmışdır.

Universitetin əməkdaşları da dinləyici qismində verilişlərdə iştirak etmişlər.





# "XƏBƏR - NEWS" QRUPUNUN İCLASI

Fevralın 24-də "Xəbər-News" qrupu universitet qurumlarından xəbərlərin hazırlanıb "Xəbər-News" qrupuna göndərilməsinə məsul təyin edilmiş qurum təmsilçiləri ilə iclas keçirdi. İclasda "Xəbər-News" qrupunun rəhbəri Əlirza Balayev, Multimedia mərkəzinin direktoru Hatella Barkaya, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli çıxış edərək, xəbər və fotoların hazırlanması, göndərilməsi və universitetin saytlarında yerləşdirilməsi ilə əlaqədar problemlərdən danışdılar, qurum təmsilçilərinə tövsiyələrini bildirdilər və onların suallarını cavablandırdılar.





## FƏLƏSTİN DÖVLƏTİNİN SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Fələstin dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Nasser Abdul Kareem Abdul Raheem Xəzər universitəsində qonaq olmuş və siyasi elm, beynəlxalq münasibətlər və regionşünaslıq ixtisasları üzrə təhsil alan tələbələrlə görüşmüşdür. Siyasi elm və beynəlxalq münasibətlər departamentinin koordinatoru Baba Bayramlı qonağı səmimi salamlamış və onu görüş iştitakçılarına təqdim etmişdir. “İsrail-Fələstin münaqişəsi: tarix, reallıq və perspektivlər” mövzusunda mühazirə ilə çıxış edən səfir sonda tələbələrin münaqişə ilə bağlı suallarını cavablandırmışdır.

Mühazirədən əvvəl Beynəlxalq Əlaqələr Ofisinin əməkdaşı Turan Cəfərova səfirə Xəzər Universitetinin 2015-2016-cı tədris ili üçün elan etdiyi və xarici ölkələrin, o cümlədən, Fələstin dövlətinin vətəndaşları üçün açıq olan Beynəlxalq Təqaüd Proqramı haqqında qısa məlumat vermiş və proqrama aid materialları ona təqdim etmişdir.

## AMBASSADOR OF PALESTINE VISITS KHAZAR UNIVERSITY

His Excellency Nasser Abdul Kareem Abdul Raheem, Ambassador Extraordinary and Plenipotentiary of the State of Palestine, visited Khazar University and had a meeting with students majoring in Political Science, International Relations and Regional Studies. Baba Bayramli, Coordinator of the Department of Political Science and International Relations, received the guest and introduced him to the meeting participants. After his presentation on “The Israel-Palestine Conflict: History, Reality and future Prospects,” the Ambassador answered students' questions on the topic.

Before the lecture, Turan Jafarova from the International Office met with the Ambassador to give him information and printed materials about Khazar University's newly announced International Scholarship Program for the 2015-2016 academic year, through which international students from foreign countries including Palestine can benefit from scholarships for study at Khazar.

## ƏMƏKDAŞIMIZ XƏZƏR TV- NİN CANLI EFİRİNDƏ

xəzər

Xəzər Universitetinin Psixologiya departamentinin koordinatoru Ülkər İsayeva fevralın 4-də Xəzər TV-də yayımlanan “Yeri gəlmişkən” verilişində “Tək qadınlar və övladları“ mövzusunda çıxış etmişdir. Tək valideynlərin məsulliyəti, valideynlərin ayrı yaşaması nəticəsində uşaqların aldıqları tərbiyə və digər psixoloji nüanslara geniş yer verilmişdir.

Ü. İsayeva fevralın 6-da həmin verilişdə “Ailədə rollar“ mövzusunun müzakirəsində iştirak etmiş, Valideynlərin ailədə rolları, övladların valideynə ata və ana kimi yanaşması və düzgün tərbiyə üsulları barədə danışmışdır..

Ü. İsayeva fevralın 25 - də Xəzər TV-də yayımlanan “Hər şey daxil” verilişində “Kişilər hisslərini niyə gizlədirlər“ mövzusunda çıxış etmişdir. Canlı efir zamanı kişilərin emosiyalarını gizlətməsi barədə müzakirələr aparılmışdır.

Martın 4-də Ü. İsayeva “Yeri gəlmişkən” verilişində “Kompleks nə deməkdir? Kompleksdən necə azad olmaq olar“ mövzusunda çıxış etmişdir.





# TƏLƏBƏ MƏCLİSİ PARLAMENTİNİN İCLASI

Fevralın 27-də Xəzər Universitetinin Konfrans zalında Tələbə Məclisinin Parlament iclası keçirildi. İclas Xocalı faciəsinin anım dəqiqəsi ilə başlandı.İclasda Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədov, vitse-prezidenti Əzizə Cəfərli, muavinlər Ruslan İsmayilov, Cəlal Hüseynbəyli, Ceyhun Cabayev çıxış etdilər. İclasda Bilik yarışının şərtləri və vaxtı təyin edildi, təlimlərin keçirilməsi, universitetdə zəng sisteminin yaradılması barəsində qərarlar qəbul edildi, Tələbə Məclisinin qərarı ilə aprel ayında referendum keçiriləcək.

# NİZAMİ RAYON İCRA HAKİMİYYƏTİNİN İLLİK HESABAT TOPLANTISINDA

Fevralın 18-də Nizami Rayon İcra Hakimiyyətində 2014-cü ilin yekunlarına həsr olunmuş ümumrayon fəallarının geniş yığıncağı keçirildi. Yığıncağı giriş sözü ilə Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov acdı və 2014-cü ildə rayonda görülmüş işlər haqqında videohesabat verildi. Hesabat ətrafında müzakirələr oldu. Müzakirələrdə millət vəkilləri, Prezident Administrasiyasının işçisi Tağı Tağıyev və digər rəsmi şəxslər çıxış etdilər.

Toplantıda 2014-cü ildə Xəzər Universitetində keçirilən tədbirlər haqqında süjetlər verildi. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da yığıncaqda çıxış etdi.

Tədbirdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etmişdir.

# 1 MART BEYNƏLXALQ MÜLKİ MÜDAFİƏ GÜNÜNƏ HƏSR EDİLMİŞ TƏDBİR

Fevralın 27-də Xəzər Universitetində Təhsil fakültəsinin biologiya elmləri departamentinin təşkilatçılığı ilə 1 Mart Ümumdünya Mülki Müdafiə gününə həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə universitetin müəllim və tələbələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan biologiya elmləri departamentinin müdiri, fəlsəfə doktoru İradə Xəlilova insan həyatının təhlükəsizliyinin təmin edilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır.

Universitetin tələbəsi Mirağa Bağırov “Mülki müdafiənin təşkili və mülki müdafiə sahəsində əhalinin hazırlanması” mövzusunda çıxış etmişdir. Sonra Ümumdünya Mülki Müdafiə Təşkilatının baş katibi Vladimir Kuvşinovun bəyanatı iştirakçıların nəzərinə çatdırılmışdır.

Tədbirdə mülki müdafiənin əhəmiyyəti, vəzifələri, fövqəladə hallara qarşı necə hazır olmağın yolları müzakirə edilmişdir. Hər bir iştirakçıya ilk tibbi yardım haqqında broşürlər paylanmışdır. Bundan əlavə, tədbirin iştirakçıları mulyajdan istifadə edərək süni tənəffüsün verilməsi, qanaxmalar zamanı ilk yardım və ürəyin qapalı masajının qaydalarını oyrənmişlər.



# "DÜNYA" MƏKTƏBİ İLƏ TANIŞLIQ

UNICEF və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə Xəzər Universitetinin Neftçilər kampusunda başlamış "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu"nun iştirakçıları "Dünya" məktəbinin təcrübəsi ilə tanış olmaq məqsədilə martın 3-də məktəbə səfər etdilər.

Məktəbin direktoru Mərufə Hacıyeva iştirakçıları salamlayaraq, onları məktəbin fəaliyyətini, missiyasını əks etdirən təqdimata baxmağa dəvət etdi. Təqdimatdan sonra məktəbin fəaliyyəti ilə əlaqədar məlumat verən direktor iştirakçıları beynəlxalq bakalavriat proqramı haqqında məlumatlandırmaq üçün sözü IBO koordinatoru Rəna Musayevaya verdi.

Görüş məktəblə tanışlıq turu ilə davam etdi, məktəb kitabxanası, laboratoriyalar, idman kompleksi, müxtəlif tipli təlimə uyğun sinif otaqları, məktəbə hazırlıq və məktəbəqədər təhsil kompleksini gəzən iştirakçılar fikirlərini məktəbin kollektivi ilə bölüşüb, suallar verdilər. Son dərəcə səmimi təşkil olunmuş görüş çay süfrəsi ətrafında davam etdi.

# INTRODUCTION TO DUNYA SCHOOL

Participants of the Management Training Course for Potential School Directors (jointly organized by UNICEF and Khazar University), which is held at the university's Neftchilar campus, visited the Dunya School on March 3rd.

Marufa Hajiyeva, the school director, greeted the guests and invited them to watch a presentation about the school's activities and mission. After the presentation, the director gave the participants information about the school's International Baccalaureate (IBO) program and gave the floor to the IBO director, Rana Musayeva.

The participants went on a tour of the school to view its library, laboratories, athletic facilities, specialized classrooms, and preschool facilities. Participants shared their observations and asked questions during the tour. Then tea was served for the guests in a very warm and sincere atmosphere.



# NİZAM-İNTİZAM QAYDALARININ MÜZAKİRƏSİ

Martın 14-də Xəzər Universitetinin Mərkəz kampusunun “Dünya” zalında Tələbə Məclisi Parlamentinin növbəti iclası keçirildi. İclasda İqtisadiyyat və menecment fakültəsində nizam-intizam qaydaları müzakirə olundu.

Tələbə Məclisinin prezidenti Mirzəağa Səmədov, vitse-prezidenti Əzizə Cəfərli, müavinlər Ruslan İsmayılov, Cəlal Hüseynbəyli, Ceyhun Cabayev və tələbələr çıxışp edərək, müzakirə olunan məsələ ilə əlaqədar mülahizə və təkliflərini bildirdilər.

## XƏZƏR UNİVERSİTETİNİN TEXNOPARKINDA “VİRTUAL MÜƏSSİSƏ” LAYİHƏSİ

Fevralın 20-də Xəzər Universiteti Texnoparkında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dünya Bankının dəstəyi ilə reallaşdırılan “Virtual müəssisə” layihəsi ilə bağlı iclas keçirilmişdir. İclasda layihəyə yeni qatılmış Xəzər Universitetinin əməkdaşları - Texnoparkın direktoru Özdən Doyuran və İnformasiya sistemləri proqram təminatçısı və meneceri Rəşad Xalıqova layihə barəsində ətraflı məlumat verilmişdir.

Digər layihə üzvləri – İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Fuad Rəsulov, İqtisadiyyat departamentinin koordinatoru Ceyhun Məmmədov və Maliyyə şöbəsinin direktoru Nağı Bayramovun da iştirak etdikləri bu iclasda layihə çərçivəsində nəzərdə tutulan mərkəzi ofisin və virtual şirkətlərin hazırkı vəziyyəti və görüləcək işlər barəsində geniş müzakirələr aparılmışdır.

## VIRTUAL ENTERPRISE PROJECT MEETING AT KHAZAR UNIVERSITY TECHNOPARK

On February 20th, a meeting was held at Khazar University Technopark to discuss the Virtual Enterprise project supported by the Ministry of Labor and Social Protection of the Population and World Bank. At the meeting, information about the project was given to Ozden Doyuran, Technopark Director, and Rashad Khaligov, Information Systems Programmer and Manager, who recently joined the project. Other project members including Fuad Rasulov, Vice Dean of the School of Economics and Management, Jeyhun Mammadov, Head of the Department of Economics, and Naghi Bayramov, Director of the Accounting Department, also participated in the meeting. A discussion was held about the current situation of virtual corporations and other aspects of the project plan.

## "KHAZAR JOURNAL OF HUMANİTİES AND SOCİAL SCİENCES" JURNALININ NÖVBƏTİ SAYI ÇAPDAN ÇIXMIŞDIR

Xəzər Universitetinin Nəşriyyatında "Khazar Journal of Humanities and Social Sciences" ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı") jurnalının növbəti sayı (8-ci cild, N:1, 2015) nəşr olunmuşdur.

Jurnalın bu buraxılışında aspirant tələbələrin təlim üslubu, lüks istehlakın təhlili, kənd təsərrüfatı bazar informasiya sisteminin Bosniya və Herseqovinada təsiri, 21-ci əsrdə Rumıniyada milli kimliyin itirilmə riski və fərqli perspektivlərdən fiziki cəza analizi məsələlərinə toxunulmuşdur.

Jurnal ildə dörd dəfə ingilis dilində nəşr olunur.

Jurnalın elektron versiyası ilə aşağıdakı linkdə tanış ola bilərsiniz:

*http://www.jhss-khazar.org*




## NEW ISSUE OF KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES

The new issue of Khazar Journal of Humanities and Social Sciences (Vol 18, № 1, 2015, Khazar University Press) has been published.

The fields that were touched upon in this issue include postgraduate students' learning styles, review of luxury consumption, the impact of the agricultural market information system in Bosnia and Herzegovina, the risk of losing national identity in twenty-first century Romania, and an analysis of corporal punishment from different perspectives.

The Journal is published four times a year in English.

The open-access electronic version of the journal can be found on: *http://www.jhss-khazar.org*

## DOKTORANTIMIZ TÜRKİYƏDƏ KONFRANSDA İŞTİRAK ETMİŞDİR

Fevralın 25-də Türkiyənin İqdır şəhərində Xocalı soyqırımının 23-cü ildönümü çərçivəsində möhtəşəm bir anma konfransı keçirilmişdir. Tədbirin təşkil olunduğu İqdır Mədəniyyət Mərkəzinin 400 nəfərlik salonunda vilayətin bütün dövlət qurumları və Azərbaycan konsulluğu təmsil olunmuşdur.

Konfransda Xəzər Universitetinin tarix elmləri üzrə doktorantı Xəqani İsmayılov da Azərbaycan nümayəndəsi kimi iştirak və çıxış etmişdir. Tarixçi-yazar X. İsmayılov ermənilərin bütün dünyada başqa xalqlara qarşı törətdikləri soyqırımları, haqsız torpaq iddialarını ortaya çıxarmağın lazım olduğunu və bu çərçivədə onların gerçək üzlərinin dünyaya göstərilməsinin lazım olduğu fikrini irəli sürmüşdür.

## MÜƏLLİMİMİZ BEYNƏLXALQ KONFRANSDA

Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun Azərbaycan Respublikası Təhsil Şurası ilə birgə martın 6-8-də "Qarabağ həqiqətlərinin böyüyən nəslə çatdırılmasının elmi-nəzəri və praktik məsələləri" mövzusunda keçirdiyi beynəlxalq elmi konfransda Xəzər Universitetini Tarix və arxeologiya departamentinin müəllimi Ülviyyə İbrahimova təmsil etmişdir.

Konfransda Ü. İbrahimovanın Xəzər Universiteti "Dünya" məktəbinin tarix müəllimi Arif İbrahimovla birgə hazırladığı "Qarabağnamələr" – Qarabağ tarixinin qaynağı kimi" adlı elmi məruzə də dinlənilmişdir.

## "XƏBƏR-NEWS" QRUPUNUN NÖVBƏTİ İCLASI

Martın 13-də "Xəbər-News" qrupu universitet qurumlarından xəbərlərin hazırlanıb "Xəbər-News" qrupuna göndərilməsinə məsul təyin edilmiş qurum təmsilçiləri ilə növbəti iclas keçirdi. İclasda "Xəbər-News" qrupunun rəhbəri Əlirza Balayev mövcud vəziyyət və nöqsanlar haqqında geniş məlumat verdi, diqqəti universitet üzrə verilmiş müvafiq əmrlərin icrasının zəruriliyinə cəlb etdi.

İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı,Texnoparkın direktoru Özden Doyuran, Neft mühəndisliyi departamentinin müdiri Qəşəm Zeynalov, Biologiya departamentinin müdiri İradə Xəlilova müzakirələrdə iştirak edərək, problemlərdən və onların həlli yollarından danışdılar.

İclasda qurum təmsilçilərinə tövsiyələr verildi, ortaya çıxan suallar aydınlaşdırıldı.

# TƏLƏBƏLƏRİN "DÜNYA" MƏKTƏBİNƏ SƏFƏRİ

Martın 5-də Xəzər Universiteti Tələbə Məclisinin (TM) təşkilatçılığı ilə bir qrup tələbənin "Dünya" məktəbinə səfəri təşkil edildi. Səfərdə TM-in prezidenti Mirzəağa Səmədov, vitse-prezidenti Əzizə Cəfərli, muavin Cəlal Hüseynbəyli və TM-in parlament uzvləri iştirak edirdilər.

Qonaqları "Dünya" məktəbi Şagird Birliyinin sədri Rüstəm Həsənov qarşıladı. Tələbələr məktəbin kitabxanası, laboratoriya otaqları, yeməkxanası, idman zalı, üzgüçülük hovuzu, həmçinin azyaşlı uşaqlar üçün məktəbəqədər hazırlıq qrupları ilə yaxından tanış oldular.

ESFIDIP

# TEMPUS LAYİHƏSİ: DAHA BİR GÖRÜŞ

Martın 6-da Xəzər Universitetində "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsi çərçivəsində görüş keçirildi. Görüşdə layihənin meneceri Ülkər İsayeva (İnsan resursları departamentinin direktoru), layihənin koordinatoru Rima Məmmədova və layihənin işçi qrupunun üzvləri Mələk Kərimova (Humanitar və sosial elmlər fakültəsinin dekan müavini), Lyudmilla Sotova (Keyfiyyətin təminatı mərkəzinin direktoru) və Elnurə Əzizova (Şərq dilləri və din araşdırmaları departamentinin müdiri) iştirak etdilər.

Görüş zamanı layihə çərçivəsində fevral ayında Yunanıstanın Makedoniya, Avstriyanın Qraz və Polşanın Lodz Universitetində keçirilmiş görüşlər barəsində hesabat verildi, layihənin fəaliyyəti haqqında fikir mübadiləsi aparıldı və gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər müəyyənləşdirildi.

# DEPARTAMENTİN QONAQLARI

Martın 13-də AMEA Tarix İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Fərəh Hüseyn və türkoloq, Azərbaycan Milli Araşdırmalar Assosiasiyasının rəhbəri Əkbər Nəcəf Tarix və arxeologiya departamentində qonaq oldular.

Departamentin müdiri Roza Arazova qonaqlarla tarixin çağdaş problemləri, tarix fənləri üzrə tədris proqramlarının tərtib olunması, xüsusilə türk xalqları tarixinin tədrisi məsələsini müzakirə etdi.

# UŞAQ ENERJİ AKADEMİYASININ MƏŞĞƏLƏSİ

Martın 14-də Xəzər-SPARE Uşaq Enerji Akademiyasının növbəti məşğələsi keçirilmişdir.

Məşğələdə işritakçılar "Təbiətdə enerji hərəkəti" mövzusunda mühazirə dinləmiş və təqdimatlar hazırlamışlar.

# VURĞUN ƏYYUBUN KULT.AZ SAYTINA MÜSAHİBƏSİ

Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin müdiri dosent Vurğun Əyyubun kult.az-a verdiyi müsahibə fevralın 9-10-da saytda yerləşdirilmişdir.. Müsahibədə V. Əyyub günümüz üçün aktual olan məsələlərə toxunur. Müsahibəni bu linkdə oxuya bilərsiniz:

*http://kult.az/yeni/view/6418#sthash.TNxfCOcI.dpuf*

# KİTABXANA - İNFORMASİYA MƏRKƏZİNDƏ TƏLİM

Kitabxana İnformasiya Mərkəzinin Kataloqlaşdırma bölməsinin müdiri Samirə Orucova tərəfindən KİM-in əməkdaşlarına təlim keçirilmişdir.Təlimdə Follet Applications proqramının "Cataloging" modulu, MARC/USMARK formatı və kitabların elektron kataloqa salınma qaydaları barədə məlumat verilmişdir.



## XƏZƏR UNİVERSİTETİNİN KOMANDASI BEYNƏLXALQ ÇEMPİONATA VƏSİQƏ QAZANMIŞDIR

Fevralın 12-də Neft Mühəndisləri Cəmiyyətinin (NMC) Xəzər Universiteti Tələbə Bölməsinin üzvlərindən ibarət komandamız (3-cü kurs tələbələri Məsail Quliyev, Fərid İsmayılıov, Fuad Cənnətov, 1-ci kurs magistr tələbəsi Yannik Agbor - neft mühəndisliyi ixtisası) BP şirkətinin Petro-Texniki Mərkəzində keçirdiyi Azərbaycan NMC PetroBowl (Neft sahəsi üzrə bilik yarışması) müsabiqəsində iştirak etmişdi.

Müsabiqədə bu cəmiyyətə üzv olan universitetlərin (Xəzər Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Neft Akademiyası və Qafqaz Universiteti) tələbələrindən ibarət 12 komanda yarışmışdı. Xəzər Universitetinin komandası qaliblərdən biri olmuş və növbəti mərhələdə iştirak etmək hüququ qazanmışdı.

Martın 17-də Neft Mühəndisliyi Cəmiyyətinin təşkilatçılığı ilə London şəhərində keçirilmiş növbəti mərhələdə Məsail Quliyev və Fərid İsmayılovdan ibarət komandamız Beynəlxalq PetroBowl oyunlarının Avropa regionu üzrə kvalifikasiya yarışında ikinci yeri tutaraq, sentyabr ayında ABŞ-ın Hyuston şəhərində keçiriləcək PetroBowl Beynəlxalq Çempionatına vəsiqə qazanmışdır.

Bu çempionatda Xəzər Universitetini Məsail Quliyev, Fərid İsmayılıov, Fuad Cənnətov və 2-ci kurs tələbəsi Arif İmanov təmsil edəcəklər.

## KHAZAR TEAM ACCEPTED TO FINAL ROUND OF INTERNATIONAL CHAMPIONSHIP

On February 12th, a team of Khazar University students participated in the Azerbaijan Society of Petroleum Engineers' PetroBowl (a knowledge bowl in the field of petroleum engineering) held in the British Petroleum (BP) Petro-Technical Center in Baku. The team included third-year students Masail Guliyev, Farid Ismayilov, and Fuad Jannatov as well as first-year master's student Yannik Agbor.

Twelve teams of students from various universities with SPM chapters (Khazar University, Baku Higher Oil School, State Oil Academy and Qafqaz University) participated in the competition. The team from Khazar University Chapter placed among the winners of the competition and was declared eligible to participate in the next level of the competition.

On March 17th, the Khazar team consisting of Masail Guliyev and Farid Ismayilov participated in the SPE Regional PetroBowl Qualifier Contest in London. They took second place and qualified for the PetroBowl International Championship which will be held in Houston (USA) in September. The Khazar University team for the final championship will include Masail Guliyev, Farid Ismayilov and Fuad Jannatov as well as second-year student Arif Imanov.

## UNİVERSİTETDƏ DÜNYA SU GÜNÜ QEYD OLUNDU

Martın 19-da Coğrafiya və ətraf mühit departamentinin təşəbbüsü ilə Xəzər Universitetində 22 Mart –Dünya Su Gününə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbirdə Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovla yanaşı, BMT-nin su üzrə eksperti David Sargent çıxış etmişlər.

Tədbirdə su ehtiyatlarının qorunması və müasir su problemləri ilə bağlı diskussiya olmuşdur.

## WORLD WATER DAY CELEBRATED AT KHAZAR

On March 19, 2015, an event to mark World Water Day (March 22) was held at Khazar University with the coordination of the Department of Geography and Environment. Presentations were made by Dr. Rovshan Abbasov, Head of the Department of Geography and Environment, and Mr. David Sargent, UN expert on water.

At the event, a discussion was held about preserving water resources and other current water-related issues.

## XƏZƏR UNİVERSİTETİ RƏHBƏRLİYİNİN MBA TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞÜ

Martın 7-də Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsində universitet rəhbərliyinin Biznesin idarə olunması (MBA) ixtisası üzrə təhsil alan tələbələrlə görüşü keçirildi. Görüşdə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, prorektorlar Məhəmməd Nuriyev və İsaxan İsaxanlı, İqtisadiyyat və menecment fakültəsinin və müvafiq departamentin rəhbərləri iştirak edirdilər.

MBA tələbələri tədris prosesində qarşılaşdığı problemlər, dərslərin keyfiyyəti və digər məsələlərlə bağlı çoxsaylı suallarla universitet rəhbərliyinə müraciət etdilər. Açıq və səmimi ruhda keçən görüşdə tələbələrin əsasən tənqidi suallarını cavablandıran professor Hamlet İsaxanlı görüşdən məmnun qaldığını, qaldırılan məsələlərlə bağlı müvafiq addımların atılacağını, MBA təhsilinin Xəzər Universitetində daha təkmil çərçivədə inkişaf etdirillməsinin prioritet vəzifə olduğunu bildirdi.

## ALMANİYALI GEOFİZİK TƏHSİL FAKÜLTƏSİNDƏ MÜHAZİRƏ OXUDU

Martın 29-da Coğrafiya və ətraf mühit departamentinin dəvəti ilə almaniyalı geofizik, Alman Beynəlxalq Əməkdaşlıq (GIZ) Təşkilatının eksperti Dr. Raimier Arndt Təhsil fakültəsinin tələbələrinə “Yeraltı suların tədqiqində geofizik metodların tətbiqi” mövzusunda mühazirə oxudu.

Mühazirədən sonra tələbələr yeraltı suların çirklənməsinin səbəbləri və onun qarşısının alınması yolları haqqında diskussiya apardılar.

## GERMAN GEOPHYSICIST GIVES GUEST LECTURE IN SCHOOL OF EDUCATION

On March 29, 2015, Dr. Raimier Arndt, an expert on geophysics for the German Agency for International Cooperation (GIZ), visited Khazar University upon the invitation of the Department of Geography and Environment to give a lecture to students of the School of Education on “Application of Geophysical Methods in Researching Underground Water.”

After the lecture, students held a discussion about causes of underground water pollution and ways to prevent it.




## MÜƏLLİMİMİZ ANKARADA “31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ” ADLI TƏDBİRDƏ

Martın 31-də Tarix və arxeologiya departamentinin müəllimi Araz Aslanlı Ankarada TRT Baş Direktorluğunun təşkil etdiyi “31 mart – Azərbaycanlıların soyqırımı günü” adlı tədbirdə olmuşdur. Tədbirdə, həmçinin, Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Valeh Hacıyev, TRT-nin Baş Direktoru Şenol Göka, Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov, Giresun Universitetinin rektoru Aygün Attar, ANS Şirkətlər Qrupunun prezidenti Vahid Mustafayev və bəzi dövlətlərin səfirləri də iştirak etmişlər. TRT tərəfindən çəkilən “Karabağın sessiz çığlığı” adlı sənədli film nümayiş olunmuşdur.

A.Aslanlı, eyni zamanda, TRT-də səhər xəbərləri proqramında çıxış edərək, 31 mart – Azərbaycanlıların soyqırımı günü və bu hadisələrdən çıxarılacaq ibrət dərsləri barədə fikirlərini bildirmişdir.

A. Aslanlı Beynəlxalq Xəbər Operatorları Cəmiyyəti tərəfindən verilən Çingiz Mustafayev adına mükafat mərasimində də olmuşdur. Mərasimdə Türkiyənin Baş naziri Əhməd Davutoğlu və digər nüfuzlu şəxslər də iştirak etmişdir.

POEZİYA



*Firəngiz xanım Nəsirova ingilis dilinin vurğunu, ingilis dili tədrisinin vurğunudur. Dərsindən tələbələri də həzz alır, özü də nəşəsini duyur. Bir poeziya, bir harmoniya xasdır Firəngiz xanımın dərslərinə. Bu ahəng, bu musiqi, bu həyəcan onun təbiətindədir, başqa cür mümkün olmazdı belə sənət nümayişi. Və onun incə, təlatümlü, şair təbiətindən sıçrayan qığılcımları sizə təqdim edirəm, əziz oxucular!*

*Baxın, Lonqfelounun əzəli qəm-kədəri tərənnüm edən şeiri "The Rainy Day" Firəngiz xanımın tərcüməsində necə həzin, necə doğmadır! Lirikamızın incəliklərini bizə bəxş etmiş Hüseyn Arifin həyat nəfəsli, yaşamaq həvəsli "Şeir deyilmi?" əsəri Firəngiz xanımın ifasında ingiliscəyə qədəm qoyur. "Isn't It a Poem, My Lovely Friend?" və siz ondakı musiqini eşidirsinizmi? Bu həyat, sevgi, həsrətlə dolu tərcümələr səndə də həm həyat eşqi, həm "əlçatmaz çağlar həsrəti" yaradırmı, əziz dost? Üstəlik, bir sual doğurur məndə bu hal. Firəngiz xanım, bəlkə sizi tək müəllim kimi deyil, həm də tərcüməçi - şair kimi tanıyaydıq ilk günlərdən. Hansı ilk günlərdən?!*

***Hamlet İsaxanlı***

## Yaşamağa nə var ki!...

*Hamlet İsaxanlı*

*Poetik tərcümələr*
*1-ci toplu, 2005*

Sözümüzün keşiyində dura bilsək,
Hədəfləri bircə-bircə vura bilsək,
Gələcəyi günümüzdə qura bilsək,
Yaşamağa nə var ki!..

Dörd tərəfdə ağ yalanlar görünməsə,
Xain, quldur saxta cildə bürünməsə,
Yaltaq adam ayaq altda sürünməsə,
Yaşamağa nə var ki!..

Vətən, millət şüar deyil, amal olsa,
Ortalıqda hünər olsa, kamal olsa,
Söz sahibi, hünər əhli xoşhal olsa,
Yaşamağa nə var ki!..

Bəd əməllər ayaq açıb yürüməsə,
Tale bizi fəlakətə sürüməsə,
Həssas ürək qəmə batıb çürüməsə,
Yaşamağa nə var ki!..

Sevgililər can eşidib, can desələr,
Duyğuların şiddətindən titrəsələr,
Könüllərə körpü salsa şən busələr,
Yaşamağa nə var ki!..

Nazlı canan canımıza qəsd etsə də,
Ağlımızı başdan alıb, məst etsə də,
Eşq var olsun, dünya tamam tərs getsə də,
Yaşamağa nə var ki!...

## The life would be so easy!..

*Hamlet Isaxanli*

*Poetic Translations*
*Volume 1, 2005*

If we could only tell the truth,
That all the things were fairly smooth,
And creating our future we're busy,
The life would be so easy!..

If the false didn't surround us,
Traitors and robbers weren't around us,
Yes-man was away from our true path,
The life would be so easy!..

If motherland was our destination,
Brave hearts belonged to the nation,
Goodwill gave creation,
The life would be so easy!..

If we preferred beauty to bad,
And the fate didn't lead us to mad,
Loving heart didn't feel so lonely, sad,
The life would be so easy!..

If lover's vows seemed strong day by day,
Feelings flashed lightning far away,
Sweet kisses from lips to hearts made a way,
The life would be so easy!...

If her beauty took our minds,
We lost our wit tender passion in fire,
Long live love! And if we admired,
The life would be so easy!..

## The Rainy Day

*Henry Wadsworth Longfellow*
*(1807-1882)*

The day is cold and dark and dreary
It rains and the wind is never weary
The vine still clings to the mouldering wall,
But at every gust the dead leaves fall
And the day is dark and dreary.

My life is cold and dark and dreary
It rains and the wind is never weary
My thoughts still cling to the mouldering Past
But the hopes of youth, fall thick in the blast
And the days are dark and dreary.

Be still, sad heart! And cease repining!
Behind the cloud is the sun still shining
Thy fate is the common fate of all
Into each life some rain must fall
Some days must be dark and dreary.

## Yağışlı gün

*Henri Lonqfelou*
*(1807-1882)*

Gün soyuq , hava tutqun, pərdə çəkib toranlıq,
Külək əsir durmadan, yağış kəsmir bir anlıq.
Tənək divar dibinə sığınsa da qorxudan,
Yenə saçı yolunur, hər yol qopanda tufan.
Hava elə zülmətdir, ürək sıxır qaranlıq.

Mənim də həyatımın buna çox bənzəri var,
Bəxtimi külək döyər, gözümdən yağış yağar.
Keçmişimi gəzərəm, üzər məni qüssə-qəm,
Gəncliyimdən söz açmaq faydasızdır, bilirəm,
Onu yellər aparıb, əl çatmazdır o çağlar.

Dərdli ürək, aram ol! Gileylənmə bu qədər!
Qara günün dalınca günəşli günlər gələr.
Hamının taleyinə bu hal tanışdır, tanış,
Hamının qismətidir çətin anlar, qar, yağış,
Gərək bəzi günlərin nəsibi olsun kədər.

## Şeir deyilmi?

*Hüseyn Arif*

Məndən təzə şeir xəbər alan dost,
Bəs yazın gəlməsi şeir deyilmi?
Gəzməyə çıxanda çölün, çəmənin
Üzünə gülməsi, şeir deyilmi?

Yenə gözüm qaldı bağçada, bağda,
Min-min gül açıldı aranda, dağda,
Eyvana əyilən çarpaz budaqda
Bülbülün nəğməsi, şeir deyilmi?

Seyr elə hüsnünü göydə durnanın,
Qayada kəkliyin, göldə sonanın,
Aynabənd otaqda gəlin ananın
Şirin lay-lay səsi şeir deyilmi?

Dərədə moruq dər, döşdə çiyələk,
Gah yağış xoş gəlir, gah sərin külək,
Yaş ötür, doymayır dünyadan ürək,
Yaşamaq həvəsi şeir deyilmi?

Kim deyir şeirin meydanı dardır?
Sonu görünməyən o bir bahardır
Neçə ki həyat var, şeir də vardır,
Həyatın nəfəsi şeir deyilmi?

## Isn't It a Poem, My lovely Friend?

*Husseyn Arif*

Spring fragrance spread apace
Pass across the fields, so grace
Spread its scent to every place
Isn't it a poem, my lovely friend?

Walk among the mountain hills
Gather flowers with fragrant smells
The nightingale's distant trills
Isn't it a poem, my lovely friend?

Crane's flight high in the sky
Gracious swans in the lake dive
Mother sings her lullaby
Isn't it a poem, my lovely friend?

Black – eyed berries on the plain
Listen to the sounds of wind and rain
Time files! Your life was not in vain
Isn't it a poem, my lovely friend?

Who is saying poem dies?
Let him look straight into my eyes.
For the men who love and sacrifice
Isn't it a poem, my lovely friend?

# Dünya İdman Kompleksi

Xəzər Universiteti "Dünya" Məktəbinin yeni, müasir **idman kompleksi** fəaliyyətə başlayıb. Həvəskar və peşəkar idmançılar, şagirdlər, tələbələr, müəllimlər, 5 yaşdan yuxarı qadınlar və kişilər üçün nəzərdə tutulmuş bu kompleksə hər kəs 1 günlük və 1 aylıq üzv ola bilər.







## Fəaliyyət göstərən idman növləri bunlardır:

- ✓Basketbol
- ✓Üzgüçülük
- ✓Voleybol
- ✓Oxatma
- ✓Qılıncoynatma
- ✓Kung Fu
- ✓Tai Chi
- ✓Fitness
- ✓Aerobika
- ✓Özünümüdafiə
- ✓Aikido
- ✓Kikboksinq
- ✓Karate







Təlimatçılar milli federasiyalar tərəfindən təyin olunmuş peşəkar məşqçilərdir. Qadınlar və kişilər üçün müvafiq saat və günlər mövcuddur.

"Dünya" İdman Kompleksinin üzvləri rayonlararası, respublika, qitə və dünya çempionatlarına qatılmaq imkanı əldə edirlər.

Ünvan: Azadlıq prospekti, Əcəmi Naxçıvani 9, Dünya Məktəbi
Telefon: (012) 563 59 47/48, (055) 569 23 23

# Azərbaycan Coriyo Kunq Fu Federasiyası

## Kung Fu (Mahir İnsan)

“Kung Fu” sözünün çin dilindən hərfi tərcüməsı “mahir insan” deməkdir. Kung Fu bir yol, həmin yolun yolçuları mahir insanlardır.

Dünyada Kung Fu idman növü üzrə federasiyalar, klublar, mərkəzlər mövcuddur. Mütərəqqi ölkələrin təhsil ocaqlarında Kung Fu idman növü fəaliyyət göstərir. Populyarlığını hər zaman saxlayan bu idmanı uşaqlar və gənclər çox sevir.

Kung Fu Azərbaycanda ilk dəfə Davud Mahmudzadə tərəfindən 1992-ci ildə tədris olunub. Bir il sonra, 1993-cü ildə ölkəmizin idman və ədliyyə nazirlikləri tərəfindən Azərbaycan “Coriyo” Kung Fu Federasiyası (ACKF) qeydiyyata alınaraq rəsmi fəaliyyətə başlayıb. Davud Mahmudzadə 1993-cü ildən ACKF-nin prezidenti və baş məşqçisidir.

Bu təşkilat Beynəlxalq Kung Fu Federasiyasının (İKF – internationalkungfu.com) Azərbaycanda milli nümayəndəsidir. Milli komandamız qitə və dünya çempinatlarında hər il ölkəmizi təmsil edir, bayrağımızı dalğalandırır, himnimizi səsləndirir.

Federasiyanın təlim məşq toplanışlarına qatılmaq üçün “Dünya” İdman Kompleksinə müraciət etmək olar.





**Ünvan: Azadlıq prospekti, Əcəmi Naxçıvani 9, Dünya Məktəbi**
**Telefon: (012) 563 59 47/48, (055) 569 23 23**

# Tai Chi

## Dərmansız həyat

Dünyada hər gün minlərlə insan sağlamlığını qorumaq üçün Tai Chi ilə məşğul olur. Hərəkətləri təbiətdən ilhamlanan və səhhət üçün faydalı olan Tai Chi yoqa kimi hərəkətli bir meditasiya növüdür. Nəfəs və hərəkət asanlığına prioritet verən bu idman sağlamlıq üçün çox faydalıdır.



**Tai Chi**

- əzələlərin hərəkətini asanlaşdırır
- bədəndəki Çi enerjisini işə salır
- narahatlığı və depressiyanı azaldır
- tarazlığı, elastikliyi və əzələ gücünü artırır
- yaşlılarda aktivlik yaradır
- yuxunu qaydaya salır
- qan təzyiqini normada saxlayır
- yaşlılarda ürək və damar sağlamlığına kömək edir
- xroniki ağrıları yüngülləşdirir
- enerjini, müqaviməti və çevikliyi artırır.

**Tai Chi ilə məşğul olmaq üçün Dünya İdman Kompleksinə müraciət edə bilərsiniz.**





**Ünvan: Azadlıq prospekti, Əcəmi Naxçıvani 9, Dünya Məktəbi**
**Telefon: (012) 563 59 47/48, (055) 569 23 23**



Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (012) 563 59 40/47/48
Mob.: (070) 844 08 88
E-mail: info@dunyaschool.az
http://dunyaschool.az

Dünya bağçası
012) 563 59 43; 563 59 45
Mob.: (070) 560 15 18
E-mail: bagca@dunyaschool.az

# DÜNYA MƏKTƏBİ

## VALİDEYNLƏRİN VƏ ŞAGİRDLƏRİN NƏZƏRİNƏ!

XƏZƏR UNİVERSİTETİNİN DÜNYA MƏKTƏBİ 2015-2016-CI TƏDRİS İLİNDƏ I-XI SİNİFLƏRƏ ŞAGİRD QƏBULU ELAN EDİR:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır. Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom Proqramında təlim ingilis dilindədir. Təhsil müddəti 2 ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

## DÜNYA BAĞÇASI

2015-2016 –cı il üçün bağçaya uşaq qəbulu davam edir.

Bağçada 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-Əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Burada müxtəlif idman növləri tətbiq olunur.




**Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

**I qrup üzrə:**

- **Kompüter elmləri**
- **Neft-qaz mühəndisliyi**
- **Kompüter mühəndisliyi**
- **İnşaat mühəndisliyi**
- **Riyaziyyat və informatika müəllimliyi**
- **Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi**
- **Kimya mühəndisliyi**
- **Biotibbi texnika mühəndisliyi**

**II qrup üzrə:**

- **Mühasibat uçotu və audit**
- **Maliyyə**
- **İqtisadiyyat**
- **Menecment**
- **Marketinq**
- **Biznesin idarə edilməsi**
- **Tarix müəllimliyi**
- **Coğrafiya müəllimliyi**
- **Regionşünaslıq (regionlar üzrə)**
- **Beynəlxalq münasibətlər**

**III qrup üzrə:**

- **Azərbaycan dili və ədəbiyyatı müəllimliyi**
- **Xarici dil (ingilis dili) müəllimliyi**
- **İbtidai sinif müəllimliyi**
- **Filologiya (İngilis dili və ədəbiyyatı)**
- **Filologiya (Azərbaycan dili və ədəbiyyatı)**
- **Politologiya**
- **Tərcümə (ingilis dili və digər dillər)**

**IV qrup üzrə:**

- **Kimya müəllimliyi**
- **Biologiya müəllimliyi**
- **Psixologiya**

**Ünvan: Məhsəti küçəsi, 11.**
**(Neftçilər metrosunun yaxınlığında)**
**Əlaqə telefonları: (012) 408-81-78, (012) 421-68-11, (012) 421-79-27**
**Faks: 012 498-93-79**
**İnternet: http://www.khazar.org**

# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.
siteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və
Xəzər Univer diplomları Avropa və Amerikanın universitetləri tərəfindən tanınır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

**"QS"** təşkilatının 2014-cü il dekabr ayının 17-də elan etdiyi reytinq cədvəlinə əsasən **Xəzər Universiteti** Azərbaycanın ən yaxşı ali məktəbi olmaqla yanaşı, Şərqi avropa, keçmiş sovet ölkələri və Türkiyə daxil olmaqla böyük bir regionun 100 ən yaxşı universiteti sırasına daxil edilmişdir. *http://www.iu.qs.com/eeca2014-rankings-results/*

**EDUNIVERSAL** Beynəlxalq Elmi Cəmiyyətinin 2014-cü il dekabr ayının 24-də açıqladığı reytinq cədvəlinə görə Xəzər Universitetinin ***Menecment, İqtisadiyyat, Mühasibat uçotu və audit*** ixtisasları üzrə MBA proqramları 2014-cü ildə dünyanın ən yaxşı 200 magistr proqramı sırasına daxil olub. Eyni zamanda, hər 3 proqram Avrasya və Yaxın Şərq bölgəsi üzrə ən yaxşı 10 magistr proqramı siyahısında yer alıb. *www.best-masters.com*

***

*Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlüklə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.*

***Professor Əjdər Ağayev,***
***Azərbaycan Təhsil Şurasının sədri***

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. Imtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**